## Partiya sədrinin səhhətində ciddi problem yaranıb

Mirmahmud Mirəlioğlu müalicə üçün Türkiyəyə gedib



**Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlunun səhhətində problem yaranıb.**

Yaxınlarının APA-ya verdiyi xəbərə görə, bir müddətdir, müxtəlif xəstəliklərdən əziyyət M. Mirəlioğlu müayinə və müalicə üçün Türkiyəyə gedib. O, Türkiyəyə ailə üzvləri ilə birlikdə yollanıb. KXCP sədrinin səhhətində problemlərin ciddi olduğu bildirilir.

## Aİ maliyyə nazirləri razılığa gəlib

Ukraynaya 5 milyard avro kredit ayrılacaq



Avropa İttifaqına (Aİ) üzv ölkələrin maliyyə nazirləri və mərkəzi bank rəhbərlərinin Praqada keçirilən qeyri-rəsmi görüşünün iştirakçıları Ukraynaya kredit kimi 5 milyard avro ayırmaq barədə razılığa gəliblər.

Bu barədə jurnalistlərə Slovakiyanın baş nazirinin müavini və maliyyə naziri İqor Matoviç bildirib.


№ 162 (5684), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 10 sentyabr 2022-ci il (şənbə)




# Düşmənin şərti hava və yer hədəfləri məhv edilib

Azərbaycan və Türkiyə hərbi pilotları tapşırıqları peşəkarlıqla yerinə yetiriblər

**Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin iştirakı ilə ölkəmizdə keçirilən "TurAz Qartalı-2022" birgə taktiki-uçuş təlimi başa çatıb.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, döyüş təyyarələrinin taktiki-texniki xüsusiyyətlərinin üstünlüklərindən istifadə etməklə uçuşlar həyata keçirən hərbi pilotlarımız qardaş ölkənin hərbi pilotları ilə birgə verilən tapşırıqları peşəkarlıqla yerinə yetiriblər.

Təlimdə plana uyğun olaraq şərti düşmənin hava və yer hədəfinin məhv edilməsi, kiçik və orta hündürlükdə çətin pilotaj və döyüş manevrləri, eləcə də müxtəlif epizodlar üzrə digər tapşırıqlar icra olunub.

Hərbi pilotların təlimdə fəaliyyətləri təhlil edilərək təlim rəhbərləri tərəfindən yüksək qiymətləndirilib, iştirakçılara gələcək xidmətlərində uğurlar arzulanıb.



## Bakıdan uçuş 45 dəqiqə çəkdi

Ən böyük sərnişin təyyarəsi Zəngilan Beynəlxalq Hava Limanına eniş edib

**"Azərbaycan Hava Yolları"nın (AZAL) ən böyük sərnişin təyyarəsi texniki uçuşunu müvəffəqiyyətlə yerinə yetirərək Zəngilan Beynəlxalq Hava Limanındakı yeni uçuş-enmə zolağına enib.**

Uçuş müddəti təqribən 45 dəqiqə təşkil edib. AZAL-ın prezidenti Cahangir Əsgərov bildirib ki, uzunillik işğaldan azad olunmuş Azərbaycan ərazisində beynəlxalq hava limanlarının tikintisi və fəaliyyəti ölkə Prezidenti İlham Əliyevin qərarı və tapşırığı sayəsində mümkün olub: "Dövlət başçısının yaxın günlərdəki bəyanatına əsasən, işğaldan azad edilmiş ərazilərdə artıq ilk beynəlxalq hava limanı fəaliyyət göstərir. Tezliklə açılışı nəzərdə tutulan ikinci beynəlxalq hava limanının uçuş-enmə zolağı istifadəyə verilib.

(səh.3)

## Şarl Mişel Bakıdan məmnundur

O, 5 ermənı hərbçinin qarşı tərəfə təhvil verilməsini alqışlayıb



**Avqustun 31-də Brüsseldə keçirilən müzakirələrdən sonra Bakıda daha beş erməni hərbçinin azad edilməsini alqışlayırıq.**

Bu barədə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel özünün "Twitter" səhifəsində yazıb. "Əsas prioritet bütün həll edilməmiş humanitar problemlərin həllidir", - Ş.Mişel yazıb.

(səh.2)

# Əldə edilmiş razılaşma tam icra olunmalıdır

Bayramovla Xovayev Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin detallarını müzakirə ediblər



**Sentyabrın 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

Bu barədə "Şərq"ə XİN-dən məlumat verilib.

Tərəflər Azərbaycanla Rusiya arasında ikitərəfli gündəlikdə duran məsələlər, regionda cari vəziyyət ətrafında, o cümlədən Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinin müxtəlif cəhətləri və bu çərçivədə atılan addımlar, etimad quruculuğu tədbirləri sahəsində görülən işlər, habelə gələcək perspektivlər barədə fikir mübadiləsi aparıblar.

(səh.2)

# Yaxın zamanda sülh müqaviləsi imzalanacaq

Avropa da, Rusiya da bu anlaşmanı öz diktəsi, nəzarəti altında baş verməsinə çalışır



**Münaqişə sonrası nizamlanma ilə bağlı Rusiyanın Bakı və İrəvanla əməkdaşlığı, fəallığı və iş rejiminin tempi azalmayıb.**

Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. XİN sözçüsü qeyd edib ki, son bir neçə ildə yüksək və ali səviyyədə, diplomatlar və qurumlararası və yeni formalaşdırılan təmaslar mexanizmləri səviyyəsində təmasların intensivliyi bunu bir daha təsdiq edir.

(səh.3)



## Beynəlxalq səyyahlar Azıx mağarasında olub

**Azad edilmiş ərazilərə səfər çərçivəsində beynəlxalq səyyahlar Azıx mağarasında olub.**

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəis müavini Ağacavid Ramazanov səyyahlara mağaranın tarixi əhəmiyyəti və orada aparılan arxeoloji qazıntılar barədə məlumat verib.

O qeyd edib ki, arxeoloji tədqiqatlar zamanı mağarada məskunlaşmış azıxantrop və neandertal insan qruplarının sümükləri tapılıb.

Ağacavid Ramazanov bildirib ki, işğal dövründə Azıx mağarası vandallıq hallarına məruz qalıb.

## 6 nəfər vəfat edib

Daha 337 nəfər koronavirusa yoluxub



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 337 yeni yoluxma faktı qeydə alınıb, 442 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 6 nəfəri vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 817 322 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 804 557 nəfər müalicə olunaraq sağalıb, hazırda 2 916 aktiv xəstə var.*

## Bu il Azərbaycana gələn turistlərin sayı iki dəfədən çox artıb



**Ötən illə müqayisədə bu il Azərbaycana gələn turistlərin sayı iki dəfədən çox artıb.**

Bunu Trend-ə turizm məsələləri üzrə ekspert Ceyhun Aşırov deyib. O qeyd edib ki, xüsusilə yay mövsümündə daha çox intensivlik müşahidə edilib. "Xüsusən ərəb ölkələri, Pakistan, Hindistan, İsraildən daha çox gələnlər oldu. Artıq mövsüm başa çatdığına görə ölkəmizə gələn turistlərin sayında azalma müşahidə olunur", - deyə o bildirib. C.Aşırovun sözlərinə görə, ötən illə müqayisədə bu il həm də xaricdə istirahətə gedən Azərbaycan vətəndaşlarının sayı 2 dəfəyə qədər artıb. "Vətəndaşlar xüsusilə Türkiyə, Mərakeş, Gürcüstana səfər ediblər. Avropa ölkələrinə gedənlər az oldu, çünki orada viza prosedurları kimi suallar var", - deyə o əlavə edib.



## "Jurnalistlər etimad göstərsə üzv olacam"

Rəşad Məcid: "Gənclər mübarizə aparmağa çalışsınlar"

(səh.2)

## "Rəsmi Bakı Brüssel razılaşmasına sadiq olduğunu göstərir"

Asif Nərimanlı: "Digər tərəfdən Azərbaycan Brüssel razılaşmasına əməl etməklə Aİ-nin "əlini gücləndirdi"

(səh.5)



# Əhməd İsmayılov forumun açılışında çıxış edib

## Azərbaycan nümayəndə heyəti Həştərxanda keçirilən Xəzər Media Forumuna qatılıb



**Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti Həştərxanda keçirilən Xəzər Media Forumunda iştirak edib.**

"Şərq" xəbər verir ki, Xəzər Media Forumunun açılış mərasimində çıxış edən Əhməd İsmayılov bildirib ki, Azərbaycan mediası müasir çağırışlara uyğunlaşmaq və daha çevik reaksiya vermək üçün islahatların yeni mərhələsinə qədəm qoyub. O xatırladıb ki, bu il iyulun 22-də Azərbaycan media nümayəndələri Şuşada Beynəlxalq Media Forum keçirməklə peşə bayramlarını qeyd ediblər. Vurğulayıb ki, Şuşada keçirilən Beynəlxalq Media Forumda dünyanın 20-yə yaxın ölkəsindən xarici media nümayəndələri və ekspertlər, həmçinin beynəlxalq təşkilatların media sahəsində təmsilçiləri müasir media mühitinin aktual problemləri ətrafında fikir mübadiləsi aparıblar.

Əhməd İsmayılov deyib ki, media sahəsinin inkişafında xarici təşkilatlarla etibarlı əməkdaşlıq əlaqələrinin qurulması da mühüm rol oynayır. O, Xəzər Media Forumu çərçivəsində regional səviyyədə informasiya fəaliyyəti və əməkdaşlıq məsələsinin müzakirəsinin vacibliyini vurğulayıb.





# "II Elizabetin vəfatı xəbərini dərin sarsıntı hissi ilə qarşıladıq"

## Prezident İlham Əliyev Kraliça II Elizabetin vəfatı ilə əlaqədar Britaniya Kralı III Çarlza başsağlığı məktubu ünvanlayıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kraliça II Elizabetin vəfatı ilə əlaqədar Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlza başsağlığı məktubu ünvanlayıb.**

**Dövlətimizin başçısı məktubunda qeyd edib:** "Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası, zəmanəmizin görkəmli dövlət başçısı, ananız Ülyahəzrət II Elizabetin vəfatı xəbərini dərin sarsıntı hissi ilə qarşıladıq. Bu ağır itkinin kədərini Sizinlə və bütün ailənizlə bölüşür, şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, səbir diləyirəm".

Prezident İlham Əliyev bildirib ki, şərəfli ömür yolu ilə örnək olan Kraliça ümumbəşəri ideallara daim sadiq qalaraq, möhkəm dəyanət, yenilməz iradə və qətiyyət nümayiş etdirərək Birləşmiş Krallığın xoşbəxt gələcəyi yolunda misilsiz xidmətlər göstərmiş, Vətəninə hədsiz bağlılığı və məhəbbəti ilə bütün dünyada böyük nüfuz və rəğbət qazanmışdır.

2009-cu ildə Kraliça ilə görüşünü hər zaman ən xoş təəssüratlarla xatırlayacağını vurğulayan dövlətimizin başçısı bir daha Əlahəzrətə, onun ailə üzvlərinə, Birləşmiş Krallığın bütün xalqına dərin hüznlə başsağlığı verib.

# Ukrayna ordusu bir neçə kilometr irəliləyib

## Cənub istiqamətində yeni ərazilər azad olunub

**Cənubdakı Ukrayna qüvvələri Rusiya hərbçilərinin nəzarətində olan mövqelərə doğru daha bir neçə kilometr irəliləyib.**

"Report" UNİAN-a istinadən xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Cənub Müdafiə Qüvvələrinin Birgə Əlaqələndirmə Mətbuat Mərkəzinin rəhbəri Natalya Qumenyuk deyib. Onun sözlərinə görə, cənub istiqamətində yeni şad xəbərlər var:

"Biz irəliləyirik, bu, göz qabağındadır. Azad etdiyimiz yaşayış məntəqələri, uğur qazandığımız istiqamətlər var. Lakin hələ ki, onların adlarını açıqlamırıq", - o bildirib.

Qeyd edək ki, bundan əvvəl ABŞ-ın müdafiə naziri Lloyd Ostin Ukrayna ordusunun Xarkov və Xerson vilayətlərində əks-hücum əməliyyatları zamanı müəyyən uğurlar əldə etdiyini bildirib.

*Xatırladaq ki, Ukrayna Müdafiə Qüvvələri Xarkov və Yujnobuqski istiqamətində 700 kvadrat kilometrdən çox ərazini Rusiya işğalından azad edib.*

# "Jurnalistlər etimad göstərsə üzv olacam"

## Rəşad Məcid: "Gənclər mübarizə aparmağa çalışsınlar"



**"Mətbuat Şurası (MŞ) yaranandan idarə heyətinin üzvüyəm. Bu dəfə də jurnalistlər etimad göstərsə, üzv olacam".**

Bunu "Şərq"ə açıqlamasında "525-ci qəzet"in baş redaktoru Rəşad Azərbaycan jurnalistlərinin keçirilməsi nəzərdə tutulan VIII qurultayı ilə bağlı danışarkən deyib.

**Baş yazar bildirib ki, MŞ-nin idarə heyətində gənclər təmsil olunmalıdırlar:** "Bu təşkilatda müasir texnologiyalara, yeni mediaya bələd gənclər yer tutmalıdır. Gənclər mübarizə aparmağa çalışsınlar. Gənc texnobloqer Fərid Pərdəşünasın, Hacıbəy Heydərlinin namizədliyini yüksək qiymətləndirirəm. Həmişə olduğu kimi budəfəki qurultayda da demokratik, yüksək səviyyəli seçim reallaşacaq".

R.Məcid MŞ-dəki seçim prosedurundan söz açıb: "Jurnalistlər MŞ idarə heyətinə namizədlər verir. Sonra qurultayda MŞ idarə heyəti seçilir. İdarə heyətinin içindən də sədr müəyyənləşdirilər". R.Məcid onu da əlavə edib ki, hazırkı sədr Əflatun Amaşov MŞ-nin yaranmasında, möhkəmlənməsində böyük fəaliyyət göstərib: "O namizədliyini irəli sürməsə, idarə heyətinin üzvlərindən biri namizəd olacaq. Qurultay nümayəndələrinin inandığı namizəd də sədr təyin ediləcək".

*Qeyd edək ki, sentyabrın 24-də Azərbaycan jurnalistlərinin qurultayı keçiriləcək. Qurultayda Mətbuat Şurasının İdarə Heyəti yenilənəcək.*

**Aygün Tahir**



# Əldə edilmiş razılaşma tam icra olunmalıdır

## Bayramovla Xovayev Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin detallarını müzakirə ediblər

**Sentyabrın 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

Bu barədə "Şərq"ə XİN-dən məlumat verilib.

Tərəflər Azərbaycanla Rusiya arasında ikitərəfli gündəlikdə duran məsələlər, regionda cari vəziyyət ətrafında, o cümlədən Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinin müxtəlif cəhətləri və bu çərçivədə atılan addımlar, etimad quruculuğu tədbirləri sahəsində görülən işlər, habelə gələcək perspektivlər barədə fikir mübadiləsi aparıblar.

Bölgədə sülh və təhlükəsizliyin təmin edilməsi üçün Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli bəyanatların müddəalarının, habelə normallaşma prosesi çərçivəsində əldə edilmiş razılıqların tam icrasının vacibliyi vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər müzakirə edilib.

# Şarl Mişel Bakıdan məmnundur

## O, 5 erməni hərbçinin qarşı tərəfə təhvil verilməsini alqışlayıb



**Avqustun 31-də Brüsseldə keçirilən müzakirələrdən sonra Bakıda daha beş erməni hərbçinin azad edilməsini alqışlayırıq.**

Trend xəbər verir ki, bu barədə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel özünün "Twitter" səhifəsində yazıb.

"Əsas prioritet bütün həll edilməmiş humanitar problemlərin həllidir", - Ş.Mişel yazıb.

Qeyd edək ki, Azərbaycan Respublikası humanizm prinsiplərini rəhbər tutaraq, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə 31 avqust 2022-ci il tarixdə Brüsseldə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdə aparılmış müzakirələrin nəticəsində əldə edilmiş ikitərəfli razılaşmaya əsasən, sentyabrın 8-də aşağıda adları qeyd olunan 5 nəfər Ermənistan hərbçisini azad etmiş və Azərbaycan-Ermənistan dövlət sərhədində qarşı tərəfə təhvil vermişdir:

- Aqramanyan Martin Muşeqoviç - 23.05.1997-ci il təvəllüdlü, Ermənistan Respublikasının vətəndaşı;
- Gevorkyan Aşot Artakoviç - 30.06.1997-ci il təvəllüdlü, Ermənistan Respublikasının vətəndaşı;
- Qriqoryan Feliks Arşakoviç - 23.12.1996-cı il təvəllüdlü, Ermənistan Respublikasının vətəndaşı;
- Manukyan Varazdat Amuşavan - 07.07.1990-cı il təvəllüdlü, Ermənistan Respublikasının vətəndaşı;
- Hovsepyan Edik Tiqrani - 02.08.1999-cu il təvəllüdlü, Ermənistan Respublikasının vətəndaşı.

# Erməni təxribatı ara vermir!

## Ədalət Verdiyev: "Ordumuzu ciddi addımlar atmağa vadar edirlər"



**Laçın və Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

Məlumata əsasən, sentyabrın 8-i axşam saatlarından 9-u səhər saatlarınadək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Qarakilsə rayonunun Noravan, Basarkeçər rayonunun Subatan yaşayış məntəqələri və Gorus rayonu istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Laçın rayonunun Əhmədli və Hacılar, Kəlbəcər rayonunun Zivel yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərinə fasilələrlə müxtəlif çaplı atıcı silahlardan atəş açıb. Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Düşmənin növbəti təxribatı barədə "Şərq"ə danışan hərbi ekspert Ədalət Verdiyev bildirib ki, Ermənistanın son günlər atəşkəsi intensiv şəkildə pozması Azərbaycan Ordusunu ciddi addımlar atmağa vadar edir: "Belə olduğu halda ordumuz yaxın günlərdə "Qisas" əməliyyatının növbəti mərhələsini həyata keçirməli olacaq.

Fikrimcə, artıq Qarabağ ərazisində mövcud olan və Azərbaycan-Ermənistan sərhədində atəşkəsi pozmağa cəhd edən erməni silahlıları tamamilə həmin atəş açılan mövqelərdən çıxarılmalıdır".

**Günəş Mərd**

# Neftin ucuzlaşması gələn il də baş verməyəcək

## Enerji bazarında risk səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir

**Dünya bazarlarında enerji daşıyıcılarının qiymətləri ilə bağlı qeyri-müəyyənlik davam edir. Söhbət volatillikdən, yəni aşağı və yuxarı doğru oynamalardan gedir. Hazırda neftin dünya bazar qiymətləri 100 dollardan aşağıdır. Əslində, qiymətlər yenə bahadır. Belə ki, 1 barelin 90 dollardan yuxarı təklifi ucuz deyil. Lakin heç bir təminat yoxdur ki, qiymət birdən-birə bundan da baha olmasın, yaxud da 80 dollardan aşağı düşməsin. Yəni enerji bazarında risk səviyyəsi heç vaxt olmadığı qədər yüksəkdir.**

İqtisadçı-ekspert Pərviz Heydərov bildirib ki, qiymətlərin 100 dollardan aşağı düşməsinin səbəbi aydındır. Analitikə görə, dünya iqtisadiyyatında proseslər müsbət istiqamətdə inkişaf etmir: "Artım getdikcə daha az səviyyədə proqnozlaşdırılır. Bu da iqtisadi əlaqələrin zəifləməsi, enerjidaşıyıcıları üzrə alış-verişin dalana dirənməsi, inflyasiya və bahaçılıqla əlaqədardır. Səbəb isə aydındır: Rusiya-Ukrayna müharibəsi. Lakin qiymətlərin daha çox ucuzlaşacağı hələki gözlənilmir. Hətta ehtimal var ki, bu, gələn il də baş verməyəcək. "OPEC+" ölkələrinin təşkilatı üzrə texniki komitə 2023-cü ildə defisit də yarana biləcəyini açıqlayıb. Növbəti ildə bazarlarda, guya ki, sutkada 300 min barel neft çatışmazlığı ortaya çıxacaq. Sual yaranır ki, bəs, sözügedən quruma aid ölkələr hasilatı getdikcə artırmaqla məşğul deyillərmi?! Bəli, elədir. Lakin məsələ bundadır ki, bəzi texnoloji baryerlər bütün imkanlardan istifadəyə imkan yaratmır. Bu səbəbdən "OPEC+" ölkələri hasilat sahəsində hələ heç pandemiyaya qədərki vəziyyəti belə bərpa edə bilmirlər. Halbuki, dünyada ümumi neft hasilatının 2/3 hissəsinin yükünü daşıyan qurum hər ay sutkada 400 min barel artım həyata keçirir".



***"OPEC+" ölkələrinin təşkilatı üzrə texniki komitə 2023-cü ildə defisit də yarana biləcəyini açıqlayıb"***

Ekspert xatırladıb ki, pandemiya ilə əlaqədar tələbin kəskin aşağı düşməsi nəticəsində 2020-ci ilin mayında sutkada 9,7 milyon barel, təxminən 10 faiz azalmaya gedilmişdi: "Cari ilin bu ayının sonunda "OPEC+" ölkələri üzrə hasilata qoyulan bütün məhdudiyyətlər aradan götürüləcək. Bununla belə, yenə də qiymət barədə konkret proqnoz irəli sürmək mümkün deyil".

**İsmayıl**



# "Rusiya-Ukrayna müharibəsində dönüş nöqtəsi çox yaxındır"

## Natiq Miri: "ABŞ qabaqlayıcı tədbirlərlə mövcud birliyin pozulmasını önləmək istəyir"

**ABŞ Dövlət katibi Entoni Blinken Brüsselə səfər edib. Dövlət katibinin sözçüsü Ned Prays bu barədə "Twitter"də məlumat verib. Onun sözlərinə görə, E.Blinken Brüsseldə NATO Baş katibi Yens Stoltenberqlə görüşərək müttəfiqlərin Ukraynaya dəstəyini və Alyansın Rusiya təcavüzünün qarşısını almaq üçün uzunmüddətli planlarını müzakirə edəcəklər.**

*Səfərin gizlinlərini "Şərq"ə şərh edən politoloq Natiq Miri söyləyib ki, indi ABŞ Ukraynada gedən müharibə səbəbindən Avropa ölkələri arasında yaradılmış birliyin sona qədər pozulmamasında maraqlıdır:*

"Çünki artıq bu məsələ ilə bağlı Avropada müəyyən narazılıqlar yaranmağa başlayıb. Rusiya ilə danışıqlar mövzusu əsas müzakirə predmetidir. Bu da artıq Avropanın rəsmi Moskvaya güzəştli mövqeyindən xəbər verir. Rusiya-Ukrayna müharibəsi nəticəsində Avropa Birliyi ölkələri həqiqətən də iqtisadi yöndə məhdudiyyətlərlə üzləşib, zərər görüb. Paralel olaraq, enerji daşıyıcıları baxımından AB-nin problemləri yaranmağa başlayıb. Qarşıdan qış fəsli gəlir. Bu qış aylarında Rusiya Avropa ölkələrinə verdiyi qazı tamamilə kəsərsə, həmin ölkələrdə əhali üçün ciddi problemlər yaranacaq. Bir sıra sosial etirazlar başlayacaq.

Ona görə ABŞ qabaqlayıcı tədbirlərlə mövcud birliyin pozulmasını önləmək istəyir. Düşünür ki, Avropa Birliyi ölkələri indiyə qədər göstərdiyi fədakarlıqları davam etdirməlidir. Artıq Rusiya-Ukrayna müharibəsində dönüş nöqtəsi çox yaxındır. Göründüyü kimi Ukrayna ordusu ölkənin cənubunda Xerson və Xarkov istiqamətində müəyyən uğurlu hərbi əməliyyatlar keçirərək işğalda olan min kvadrat kilometrdən artıq ərazini azad edib. İki şəhər təmizlənib.

Bu da müharibədə dönüş nöqtəsinin yarandığına çox ciddi bir işarədir. Belə bir məqamda Avropa Birliyinin Ukrayna ətrafında yaratdığı böyük bir birliyin pozulması, əlbəttə, Rusiyanın mövqelərini gücləndirər, bilavasitə onun siyasətinə xidmət edər. Düşünürəm ki, Blinkenin Avropa ölkələrinə başa salmaq istədiyi əsas mövzu budur".

**N.Miri onu da əlavə edib ki, yaxın zamanda Almaniyada yenidən Ukraynaya yardım edən ölkələrin görüşü olacaq:** "Burda da Ukraynaya indiki əks-hücum vəziyyətində lazım olan silahlar və yardımlar müzakirə ediləcək. Analoji məsələlər də hazırda həm Qərb, həm Ukrayna, həm də digər ölkələr üçün vacibdir".

**Günəş Mərd**

# Yaxın zamanda sülh müqaviləsi imzalanacaq

## Avropa da, Rusiya da bu anlaşmanı öz diktəsi, nəzarəti altında baş verməsinə çalışır

**Münaqişə sonrası nizamlanma ilə bağlı Rusiyanın Bakı və İrəvanla əməkdaşlığı, fəallığı və iş rejiminin tempi azalmayıb. Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. XİN sözçüsü qeyd edib ki, son bir neçə ildə yüksək və ali səviyyədə, diplomatlar və qurumlararası və yeni formalaşdırılan təmaslar mexanizmləri səviyyəsində təmasların intensivliyi bunu bir daha təsdiq edir.**




***"Dünya gücləri başa düşürlər ki, Azərbaycanla Ermənistan arasında münaqişə artıq bitib. Rəsmi Bakının "status" və ərazi məsələlərində heç bir güzəştə getməyəcəyi hamıya bəllidir"***

O, Moskvanın Bakı və İrəvanla təmaslarının demək olar ki, gündəlik formatda baş verdiyini söyləyib: "O ki qaldı ali səviyyədə görüşlərin mümkünlüyünə, xatırladım ki, bununla bağlı prezident administrasiyası şərh verə bilər". Zaxarova bu günlərdə Rusiya XİN-in Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevin Bakıda səfərdə olduğunu bildirib. Onun sözlərinə görə, rusiyalı diplomat Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanması perspektivlərini müzakirə etmək üçün Bakıya gedib: "Yaxın vaxtlarda Xovayev bu məqsədlə İrəvana səfər etməyi planlaşdırır". Zaxarova Rusiyanın üçtərəfli bəyanatların icrasına birinci dərəcəli önəm verdiyini əlavə edib: "Ümumilikdə Rusiya tərəfi Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və demarkasiyası, vətəndaş cəmiyyətlərinin xətti ilə Bakı və İrəvan arasında təmasların möhkəmlənməsi daxil olmaqla ali səviyyədə imzalanan Üçtərəfli bəyanatların icra olunmasına birinci dərəcəli önəm verir. Ardıcıl olaraq bütün səviyyələrdə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin qeyd olunan razılaşmaları tam həcmdə həyata keçirilsin. Bu, Cənubi Qafqazda dayanıqlı sülhün formalaşması şərtlərini təmin edəcək, hansı ki, bu, təkcə region dövlətlərinin deyil, o cümlədən onların qonşularının da maraqlarına cavab verir".

**Zaxarovanın açıqlamasını "Şərq"ə dəyərləndirən AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli deyib ki, hazırda Azərbaycan-Ermənistan münasibətləri ətrafında cərəyan edən proseslər Qərblə Rusiya arasında ciddi rəqabət yaradıb. Partiya rəsmisi qeyd edib ki, tərəflərin gah Brüsseldə, gah da Moskvada bir araya gəlməsi, müzakirələrdə Avropa ölkələri ilə yanaşı, Rusiyanın da iştirak etməsi bunun göstəricisidir:** "Dünya gücləri başa düşürlər ki, Azərbaycanla Ermənistan arasında münaqişə artıq bitib. Rəsmi Bakının "status" və ərazi məsələlərində heç bir güzəştə getməyəcəyi hamıya bəllidir. İrəvanın sülhdə maraqlı olması, Paşinyanın müsbət açıqlamaları da Avropa və Rusiyanı daha ciddi addımlar atmağa sövq edir. Təbii olaraq Moskva çalışır ki, Cənubi Qafqazda baş verən proseslər birbaşa onun nəzarətində cərəyan etsin. Avropa da prosesin öz çətiri altında getməsini istəyir. Ümumən, Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin yaxın zamanda imzalanacağı şübhəsizdir. Amma məsələ ondadır ki, sülh hansı gücün diktəsi və nəzarəti altında imzalanacaq. Rusiya, yoxsa Avropa?! Hələlik Rusiyanın təzyiq rıçaqları, Ermənistan üzərindəki təsiri Qərbdən daha güclüdür. Ancaq Ermənistanda anti-Rusiya dalğası var və getdikcə güclənməkdədir. Qərb də bundan öz xeyrinə istifadə etmək istəyir. Lakin Moskva həqiqətən sülh istədiyi üçün aktivlik göstərmir. Məqsədi odur ki, sülh imzalansa belə regionda təsir gücünü, nüfuzunu qoruyub saxlaya bilsin. Əslində isə Qərb də, Rusiya da qeyri-səmimidir. Rəsmi Bakı bunu gözəl bilir və iki gücün rəqabətindən istifadə edərək maraqlarımıza uyğun addımlar atır".

**İsmayıl Qocayev**



# ABŞ-ın Rusiyanı "ofsayd"da saxlamaq potensialı yoxdur

## Aqşin Kərimov: "İqor Xovayev qızışan rəqabət fonunda regional təzyiqi ölçmək üçün bölgəyə səfər edir"

**"Rusiya ilə ABŞ-ın Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsində çəki artırmaq uğrunda yarışı özünün yeni mərhələsinə adlayıb.**

Bu mərhələdəki çəkişmənin təzahürünü Rusiyanın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üzrə xüsusi nümayəndəsi İqor Xovayevlə, amerikalı siyasətçi Filip Rikerin paralel anda regiona səfər etməsində görmək mümkündür".

Bu sözləri "Şərq"ə açıqlamasında siyasi analitik Aqşin Kərimov deyib. Onun qənaətincə, ABŞ-ın Cənubi Qafqazda Rusiyanı sıxışdırıb kənara atmaq potensialı yoxdur. Çünki bölgə tarixən Moskvanın maraqları ilə əhatə olunub: "Maraqlar elə kök salıb ki, onu qısa müddət ərzində neytrallaşdırmaq çətin məsələdir.

Rəsmi Vaşinqton Azərbaycanla Ermənistan arasındakı yekun sülh müqaviləsinin Kremlin vasitəçiliyi ilə bağlanacağını anlayır. Bu mənada o, indidən Moskvanı "ofsayd"da saxlamaq üçün addımlar atır.

Rusiya isə ABŞ-ın qolqanad açması üçün "barmaq yeri" qoymaq istəmir. İ.Xovayevin səfərinin pərdəarxasında həmin niyyət gizlənir. Rusiya mümkün razılaşmalarda və ya Azərbaycanın ata biləcəyi hərbi addımlarda öz maraqlarını artırmaq prinsipindən çıxış edir.

Bakı isə Moskvanın belə davranışını özünün aktivinə çevirərək İrəvana təzyiqləri artırır.

Bir sözlə, İ.Xovayev qızışan rəqabət fonunda regional təzyiqi ölçmək üçün bölgəyə səfər edir".

*Qeyd edək ki, Rusiyanın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üzrə xüsusi nümayəndəsi İqor Xovayev Bakıdadır. O, tərəflər arasında sülh sazişinin imzalanmasının bağlanması perspektivlərini müzakirəsi üçün səfər edib. İ.Xovayev İrəvana da səfər planlaşdırır.*

**Aygün Tahir**

# Bakıdan uçuş 45 dəqiqə çəkdi

## Ən böyük sərnişin təyyarəsi Zəngilan Beynəlxalq Hava Limanına eniş edib

**"Azərbaycan Hava Yolları"nın (AZAL) ən böyük sərnişin təyyarəsi texniki uçuşunu müvəffəqiyyətlə yerinə yetirərək Zəngilan Beynəlxalq Hava Limanındakı yeni uçuş-enmə zolağına enib.**



***"Şərqi Zəngəzur və bütövlükdə ölkəmiz üçün xeyirli və düşərli olsun"***

Uçuş müddəti təqribən 45 dəqiqə təşkil edib. AZAL-ın prezidenti Cahangir Əsgərov bildirib ki, uzunillik işğaldan azad olunmuş Azərbaycan ərazisində beynəlxalq hava limanlarının tikintisi və fəaliyyəti ölkə Prezidenti İlham Əliyevin qərarı və tapşırığı sayəsində mümkün olub: "Dövlət başçısının yaxın günlərdəki bəyanatına əsasən, işğaldan azad edilmiş ərazilərdə artıq ilk beynəlxalq hava limanı fəaliyyət göstərir. Tezliklə açılışı nəzərdə tutulan ikinci beynəlxalq hava limanının uçuş-enmə zolağı istifadəyə verilib. Əlverişli coğrafi mövqeyi nəzərə alaraq Zəngilan hava limanı çoxfunksiyalı hava limanı olaraq, regionun iqtisadi, nəqliyyat və sosial məsələlərinin həlli üçün mühüm alət olacaq. Ölkənin digər beynəlxalq hava limanları kimi, müasir tipli böyük təyyarələri qəbul edə bilən bu hava limanı da bütün yüksək dünya standartlarına və tələblərinə cavab verir". Qeyd edək ki, Zəngilan hava limanında uçuş-enmə zolağının uzunluğu və eni müvafiq olaraq 3000 metr və 60 metrdir. Zəngilan hava limanı texniki cəhətdən tam komplektləşdirilib. Bütün tələb olunan aeronaviqasiya avadanlıqları ilə təmin edilib. Hava hərəkətini avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təchiz edən HHİ qülləsinin tikintisi başa çatdırılıb. Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad edilən Azərbaycan ərazisində inşa olunmuş ikinci hava limanıdır.

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə bildirib ki, bu il istifadəyə veriləcək Zəngilan Beynəlxalq Hava Limanı həm iqtisadi, həm də strateji baxımdan ən vacib layihələrdən biridir. Deputatın sözlərinə görə, Zəngilan iqtisadi və turizm baxımından böyük potensiala malik rayondur:** "Burada istehsal olunan məhsullar ölkəmizdə istifadə olunmaqla yanaşı, birbaşa xarici ölkələrə çıxarıla biləcək. Zəngilan Beynəlxaq Hava Limanı yaxın gələcəkdə istifadəyə veriləcək Zəngəzur dəhlizinə inteqrasiya olunacaq. Bundan sonra hava limanı şərq-qərb, şimal-cənub nəqliyyat dəhlizlərinin də elementinə çevriləcək. Bu da Zəngilan daxil olmaqla həmin ərazilərimiz vasitəsi ilə daşınan beynəlxalq yüklərin həcminin artmasına və Azərbaycanın daha çox gəlir əldə etməsinə imkan verəcək. Şərqi Zəngəzur və bütövlükdə ölkəmiz üçün xeyirli və düşərli olsun".

**İsmayıl Qocayev**



# "Putin haqlıdır"

## Ərdoğan Səmərqənddə Rusiya Prezidenti ilə taxıl dəhlizi məsələsini müzakirə edəcək

**Səmərqənddə Rusiya Prezidenti Vladimir Putin ilə geniş və ətraflı görüşümüzün olacağına inanıram. Bu görüşdə əsasən taxıl dəhlizi məsələsini müzakirə edəcəyik.**

Düzünü desəm, mən Prezident Putinin taxılın "zəngin ölkələrə gedir, kasıblara deyil" yanaşmasını düzgün hesab edirəm. Yani, bunun bu prinsip əsasında aparılması lazımdır. Çünki burada əsl məsələ kasıb ölkələrin bu taxıl dəhlizindən öz payını almasını və bu çətin dövrdən çıxmasını təmin etmək olmalıdır. Lakin hazırda vəziyyət elə görünmür. Yəni, Rusiya Prezidentinin dediyi kimi, gəmilər yenə ya inkişaf etmiş, ya da inkişaf etməkdə olan ölkələrə doğru gedir.

Azərtac xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Baltik ölkələrindən səfərdən dönərkən jurnalistlərə müsahibəsində bildirib.

Səmərqənd görüşü zamanı Vladimir Putindən Rusiya məhsullarının da yaradılan dəhliz vasitəsilə gəmilərlə göndərilməsini rica edəcəyini bildirən Prezident Ərdoğan deyib: "Əgər Rusiya taxılı da gəlməyə başlasa, biz burada kasıb Afrika ölkələrinə çatana qədər onların hamısını ən ideal şəkildə müəyyən bir sistemə bağlayıb, taxılı və başqa məhsulların hamısını o ölkələrə göndərəcəyik. Çünki xüsusilə Afrikada çox çətin vəziyyətdə olan bir çox ölkə var ki, bu ölkələrə bizim qucaq açmağımız, onlara bir an əvvəl bu məhsulları göndərməyimiz lazımdır".

**Səfər barədə danışan Türkiyə Prezidenti bildirib:** "Səfərin əsas müzakirə mövzusu Bosniya və Herseqovinadakı siyasi böhrana həll yolu tapmaq idi. Bu çərçivədə həmsöhbətlərimizlə məsləhətləşdik, təklif və töhfələrimizi onlarla bölüşdük. Hər üç ölkədə keçirilən biznes forumlarda iştirak etdim. Bundan əlavə, səfərlərim münasibətilə üç ölkə ilə müxtəlif sahələrdə ümumilikdə 11 müqavilə imzaladıq".

# Paşinyan Vladivostokda fərqli fikirlər səsləndirdi

## Baş nazir göstərməyə çalışır ki, Ermənistan sülhə hazırdır, ancaq Rusiya imkan vermir

**"Brüssel görüşündən dərhal sonra Azərbaycanla sülh anlaşmasına hazır olduqlarını deyən Ermənistan Baş naziri Nikol Paşinyan Vladivostokda başqa şeylər sərsəmlədi".**

Bu sözləri millət vəkili Sahıb Alıyev deyib. Deputat qeyd edib ki, Paşinyanın fikrini dəyişməsi təkcə onun özü haqda qeyri-ciddi adam imici yaratmır. Baş nazir bu açıqlamasıyla əslində göstərməyə çalışır ki, Ermənistan sülhə hazırdır, ancaq Rusiya imkan vermir: "Məhz Rusiyanın dövlət başçısı Vladimir Putinlə görüşdən sonra o, cənab İlham Əliyevlə razılığa gəlmədiklərini açıqladı. Xatırladım ki, Vladivostokdakı forumda etdiyi çıxışında Ermənistan baş naziri ölkəsinin Türkiyə ilə əlaqələrinin normallaşmasında da Rusiyadan kömək istəmişdi. Türkiyə ən yüksək səviyyədə Ermənistanla əlaqələri yoluna qoymağa hazır olduğunu bildirir və bu yöndə əməli addımlar da atır. Qarşı tərəf də belə bir istəyinin olduğunu deyir. Sual olunur, bəs onda burada Rusiyanın yardımına nə ehtiyac var? Aydın görünür ki, Paşinyan bu çıxışı ilə Türkiyə ilə əlaqələrin normallaşmasının Rusiya tərəfindən qarşısının kəsildiyini göstərməyə çalışır. Onun Rusiyadan Türkiyə ilə əlaqələrin normallaşmasına yardım istəyinin diplomatik dildən tərcüməsi bu idi ki, "buna maneçilik törətmə".




**Parlament üzvü vurğulayıb ki, tamamilə mümkündür ki, belə bir xahişi dilə gətirməsi ona diktə edilmişdi:** "Görünür, bir gecədə Avropa Birliyi ilə Assosiasiya anlaşmasından imtina edən Serj Sarkisyanla 2013-cü ildə hansı dildə danışılmışdısa, Vladivostokda da Paşinyanla o dildə danışılıb. İndi o da Rusiyanın uzaq şərqindən qərbdəki yaxınlarına çatdırır ki, Ermənistan forpostudur, onun Azərbaycanla sülh anlaşması bağlayıb-bağlamayacağını, Türkiyə ilə əlaqələri normallaşdırıb-normallaşdırmayacağını rəsmi İrəvan yox, Kreml həll edir".

**İsmayıl**

# Bu yollar bizi hələ çox yoracaq

## Dəhşətli tıxacların səbəblərindən biri də baş verən qəzalardır



**Dünən səhər saatlarında Heydər Əliyev prospekti, ”Bağırov körpüsü” (tuneldə), mərkəz istiqamətində baş vermiş yol-nəqliyyat hadisəsi tıxaca səbəb olub. Daxili İşlər Nazirliyi Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin məlumatına görə, qəza səbəbindən həmin istiqamətdə avtomobillərin hərəkətində sıxlıq yaranıb.**

Təbii ki, bu, birinci və ya sonunca hadisə deyil. Hardasa avtomobil qəzası baş verirsə, həmin istiqamətdə mütləq tıxac, sıxlıq yaranır. Burada sürücülərin, hətta adi vətəndaşların izahedilməz marağı da rol oyanır. Bir hadisə baş verdimi, sürücülər sanki muzeydə nadir bir eksponata, yaxud görünməmiş bir hadisəyə şahidlik edirlərmiş kimi avtomobillərinin sürətini azaldır, qəzanın yanından yavaş-yavaş hərəkət etdirərək, olanları göz yaddaşına köçürməyə çalışırlar. Həmin ərazidə, ətrafda olanlar da bir yandan ora toplaşır, hamı ”ekspertlik” etməyə başlayır. Nəticədə yolda sıxlıq yaranır. Bəzən də qəzaya uğramış avtomobil uzun müddət hadisə yerində qalır ki, bu da tıxacların yaranmasına gətirib çıxarır. Qəzaya uğramış avtomobili ərazidən tez kənarlaşdırmaq bu qədərmi çətindir?

**Məsələni ”Şərq”ə şərh edən nəqliyyat problemləri üzrə ekspert İlqar Hüseynli qeyd etdi ki, qəzaya uğramış avtomobilin hadisə yerindən, yolun hərəkət hissəsindən tez kənarlaşdırılmaması bir neçə səbəbə bağlıdır:**

***“Sığorta şirkətinin nümayəndəsi hadisə yerinə gəlməmiş avtomobili yerindən tərpətmək olmur”***

- Hər bir qəzanın ilkin başvermə şəraiti var. Bu şəraitin müəyyənləşməsi, qəzanın hansı şəraitdə baş verdiyinin bilinməsi üçün avto-texniki ekspertizanın yerindəcə aparılması vacibdir. Əvvəllər belə hallarda sürücülər öz aralarında razılığa gəlirdi, kimin daha çox günahkar olduğunu özləri müəyyənləşdirir, dəymiş ziyanın ödəniləcəyinə dair razılaşırdılar, yol polisinin hadisə yerinə gəlməsini gözləmədən və bunu istəmədən hadisə yerindən uzaqlaşırdılar. Lakin son illərdə avtomobil vasitələrinin icbari sığortası tətbiq edilməyə başlandı. Və avtomobil sahibləri icbari sığortaya cəlb edildilər. Ona görə də hər hansı qəza baş verdikdə avtomobil sahibi həm sığorta agentinin, həm də polisin hadisə yerinə gəlməsini gözləmək məcburiyyətindədir. Sığorta şirkətləri avtomobilə dəymiş ziyanın hadisə yerində müəyyənləşdirilməsi şərtini irəli sürür. Deyək ki, avtomobil sahibi qəzaya uğramış avtomobili özü yoldan kənara çəkibsə, hadisə yerindən uzaqlaşdırıb, başqa bir yerə aparıbsa sığorta şirkəti dəymiş ziyanın avtomobil sahibi tərəfindən artırıla biləcəyini əsas gətirib sığortanı ödəməkdən imtina edə bilər. Sığorta şirkəti israr edir ki, avtomobil yerindən tərpədilməsin, gələk baxaq, dəymiş ziyanı müəyyənləşdirək. Sığorta şirkətləri ilə avtomobil sahibləri arasında belə mübahisələr çox olur. Ona görə sürücülər avtomobilin qəza yerindən tərpədilməsini istəmirlər. Bu da onsuz da tıxacların müntəzəm yaşandığı şəhərimizdə əlavə sıxlıq yaradır.

**İ.Hüseynli qəza zamanı evakuatorların hadisə yerinə gec gəlməsinin də qəzaya uğramış avtomobilin hadisə yerindən gec kənarlaşdırılmasına səbəb olduğunu dedi:**

- Bu məsələ bəzən sürücülərdən asılı olmur. Bəzən qəza zamanı avtomobil elə vəziyyətə düşür ki, onu sürüb kənara çəkmək mümkün olmur, evakuator xidmətinə ehtiyac yaranır. Evakuatorun hadisə yerinə gəlməsi, avtomobili yoldan qaldırması da xeyli vaxt aparır. Bəzən müşahidə kameralarını əsas gətirirlər, bir halda ki, kameralar var, qəzanın baş vermə səbəbini, kimin daha çox günahkar olduğunu, yol hərəkəti qaydasının necə pozulduğunu müəyyən etmək asandır. Bəli, müşahidə kameraları yol-nəqliyyat hadisəsinin necə baş verdiyini müəyyənləşdirməkdə əsas köməkçidir, lakin dəymiş ziyanın müəyyənləşməsinə kameralar kömək edə bilmir. Sığorta şərtinə görə, bu, mütləq yerində araşdırılmalıdır.

**Məlahət Rzayeva**



# Bakı sakini qayçı uddu

## Xəstənin vəziyyəti orta ağır qiymətləndirilir

**Bakıda yad cisim (qayçı) udan vətəndaş əməliyyat olunub.**

**Bu barədə ”report”a Nərimanov Tibb Mərkəzindən məlumat verilib.**

Belə ki, təcili tibbi yardım avtomobili ilə başqa tibb müəssisəsindən 06.09.2022-ci il saat 22:10 radələrində yad cisim (qayçı) udan vətəndaş Nərimanov Tibb Mərkəzinə yerləşdirilib. Tibb müəssisəsində xəstəni ilk olaraq cərrah Emin Quliyev və torokal cərrah Fəyyaz Məmmədov müayinə edib. Kompüter tomoqrafiya (KT) və rentgenoloji müayinələr nəticəsində qida borusunun praksimalında qayçı aşkarlanıb və xəstə təcili olaraq əməliyyata götürülüb.

Cərrah Emin Quliyevin icra etdiyi əməliyyatda larinqaskopun köməkliyi ilə ağız boşluğu açılıb və yad cisim ağız boşluğundan xaric olunub. Daha sonra divar aralığında mediastinit təhlükəsi və emfizema aşkarlandığı üçün divar aralığına drenaj qoyularaq əməliyyat yekunlaşıb.

Xəstə bir gün Reanimasiya şöbəsində həkim nəzarəti altında qalıb. Daha sonra palataya köçürülüb. Hazırda müvafiq müalicələrə davam edilir.

Xəstənin vəziyyəti isə orta ağır qiymətləndirilir.



# Paşinyan ordu daxilindəki rus qüvvələri təmizləməlidir

## Əks təqdirdə onun sülh istiqamətində atacağı addımlar sabotaj olunacaq

**”Ermənistanın dövlət sərhədində atəşkəsi mütəmadi pozması, xüsusilə Brüssel görüşündən sonra bu halların baş verməsi, rəsmi İrəvanın danışıqlarda vaxt qazanmağa çalışdığını göstərir”. Bu barədə ”Şərq”ə politoloq Məhəmməd Əsədullazadə deyib.**

Analitik bildirib ki, ordu daxilində Rusiyaya yaxın generallar təxribatların davam etməsində maraqlıdır: ”Nikol Paşinyan ordu daxilində Rusiyaya yaxın qüvvələri təmizləmədikcə, sülh istiqamətində atacağı addımlar sabotaj olunacaq.

Moskva danışıqlar masasını pozmaq üçün Ermənistan rəsmilərinə təzyiqlər edir. Məhz Kəlbəcər və Laçında atəşkəsin mütəmadi pozulması bunu göstərir. Putin və Paşinyan arasında keçirilən danışıqlardan sonra Rusiyada Azərbaycan-Ermənistan liderlərinin növbəti görüşünün baş tutma ehtimalı var. Hazırda Moskvanın davranışları heç də iki ölkə arasında real sülhün əldə edilməsinə hesablanmayıb. Ona görə də rəsmi Bakı Rusiyanın vasitəçiliyində maraqlı deyil”.

*Ekspertin fikrincə, Kreml rəhbəri Rusiya-Ukrayna müharibəsi fonunda Azərbaycan və Ermənistan arasında real sülhün əldə edilməsində maraqsızdır:* ”Paşinyanın hansı mövqe tutmasından asılı olmayaraq, Brüsselin vasitəçiliyindən imtinası mümkün görünmür. Bu, Paşinyan hakimiyyətinin sonu ola bilər. Ümumiyyətlə, Azərbaycanla sülh müqaviləsinin bağlanması erməni baş nazirin hakimiyyətdə qalması üçün sığortasıdır”.

**İsmayıl**

# Abdullah Katırcı Fatih Akpınar əvəzlədi

## Birgə Monitorinq Mərkəzinin Türkiyə kontingentinin yeni komandanı dəyişdi



**Dünən Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin Türkiyə kontingentində səlahiyyət müddəti başa çatan general-mayor Abdullah Katırcını qəbul edib.**

Bu barədə ”Şərq”ə Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında bütün münasibətlərin, o cümlədən hərbi əməkdaşlığın qardaşlıq, dostluq üzərində qurulduğu xüsusi vurğulanıb.

Müdafiə naziri general-leytenant A.Katırcıya gələcək fəaliyyətində uğurlar arzulayıb.

Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin Türkiyə kontingentinin yeni komandanı da məlum olub.

Bildirilib ki, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin Türkiyə kontingentinə bundan sonra general-mayor Fatih Akpınar rəhbərlik edəcək.

**Günəş**

# Bütün müəllimlərə şamil etmək olmaz

## “Həqiqətən sadə sözlərin yazılışından bixəbər müəllimlərimiz var”

**”Sözlərin düzgün yazılış qaydasını bilməyən müəllimləri savadsız adlandırmaq olar”.**

*Bu fikirləri ”Şərq”ə deyən təhsil üzrə ekspert, fəlsəfə doktoru Rafiq İsmayılov bildirib. O söyləyib ki, yazı savadı hüsnxətdən sonra orfoqrafiya qaydalarına əməl etməyi tələb edir:* ”Müəllim bu səviyyədə səhvlərə yol verirsə, bəs fikrini necə ifadə edir?! Ona görə də təhsilverənlərin primitiv yanlışlar etməsi yaxşı hal deyil. Nazir də məsələyə haqlı olaraq toxunub. Belə müəllimlərimizin mövcudluğunu cəmiyyətin, ictimaiyyətin diqqətinə çatdırıb.



Onlar əmək haqqından danışanda bilik və savadlarını da nəzərə almalıdırlar. Düzdür, bunu hər kəsə şamil etmək də doğru olmaz. Amma bir dərslik müəllifi kimi, sadə sözlərin belə yazılış-deyilişindən bixəbər müəllimlərin olduğunu bilirəm. Çünki qeyd etdiyimiz kimi, düzgün orfoqrafiya qaydalarını bilmək yazı bacarığının ən aşağı pillələrindən biridir.

Hər şey onunla başlayır. Əgər analoji, kobud səhvlər edirlərsə, şagirdlərə nə öyrədirlər?! Bu sözlərin hamısı qaydalarla tənzimlənir.

Müəllimin anlayışı olmalıdır ki, iki kar samit yanaşı gələndə ikincisi cingiltili tələffüz edilir. Qrammatikadan məlumatsız təhsilverənlər haqqında sertifikasiyadan keçməmək kimi ölçülər götürülməlidir”.

**Sücayət Mehti**

# İşsiz, günəmuzd işləyən valideynlər də tələbə oxudur

## Təhsil ianələri daha çox bu təbəqənin insanları üçün əlçatan olmalıdır

**Təhsilin İnkişafı Fondunun (TİF) sədri Elnur Nəsibovun sözlərinə görə, təhsil üçün ianələrin edilməsinə imkan yaradılacaq. Fond ölkə ərazisində və ondan kənarda yaşayan fiziki və hüquqi şəxslərə təşkilatın saytından istifadə etməklə təhsil üçün ianələrin edilməsinə imkan yaradacaq: ”İanələri edən fiziki və hüquqi şəxslər açıq və ya anonim şəkildə qala bilərlər.**

1000 manat və aşağı məbləğdə ianə edənlərə elektron sertifikat, 1000 manat və daha artıq məbləğdə ianə edənlərə isə TİF ofisinə dəvət olunmaqla kağız sertifikat təqdim edilə bilər. Qeyri-maddi vəsaitlə ianə edən fiziki və ya hüquqi şəxslərə tərəfdaş sertifikatları təqdim edilə bilər”.

İanələrin hansı istiqamətdə xərclənəcəyi məsələsinə gəlincə, E.Nəsibov əlavə edib ki, hazırda təşkilatın strukturu formalaşdırıldığından dəqiq nəsə demək doğru deyil.



**Sosioloq Lalə Mehralı məsələ ilə bağlı ”Şərq”ə açıqlamasında ilkin olaraq Təhsil Tələbə Krediti məsələsinə toxunub:** ”Sizin də bildiyiniz kimi imkanı olmayan ailələr övladı ödənişli təhsil alanda TTK-ya müraciət edir. Amma yenə də ilkin ödəniş tələb olunur. Valideyn illik 2000 manat ödəməlidirsə həmin məbləğin 20 faizini ilkin olaraq ödəməlidir. Hər valideyn də 400 manatı tapıb ödəyə bilmir deyə övladını universitetə göndərməkdən imtina etmək məcburiyyətində qalır. Nəticədə uşağın neçə illik əziyyəti, hazırlığa tökdüyü pullar havayı gedir. Hesab edirəm ki, təhsil üçün edilən ianələr məhz bu istiqamətlər üçün xərclənsə çox gözəl olar. Yəni toplanan ianələr ilkin ödənişini ödəyə bilməyən tələbələrə müəyyən müddətlik verilməlidir. Valideyn qaytara bilməsə də, məcburi tələb olmamalıdır”.

L.Mehralının sözlərinə görə, işsiz valideynlərə kömək məqsədi ilə ianələrdən istifadə oluna bilər. Rəsmi iş yeri olan valideynlər övladlarının hansısa ehtiyacı üçün banklardan kredit götürə bilir. Rəsmi iş yeri olmayıb günəmuzd işləyən valideynlər də tələbə oxudur axı!? İanələr bu cür insan üçün də əlçatan olmalıdır.

**Təhsil eksperti Elçin Əfəndi isə ümid edir ki, təhsil üçün könüllü ianə modelinin tətbiqi kiminsə maliyyə imkanlarını yaxşılaşdırmaq funksiyasını yerinə yetirəcək:** ”Təhsil sahəsində ianələrin edilməsi təcrübəsindən bir çox dünya ölkələrində istifadə edilir. Valideynlər müvafiq məktəblərin hesabına könüllü ianələr yatırırlar və müxtəlif istiqamətlərdə həmin hesabatdan istifadə olunur. Təbii ki, şəffaflıq və obyektiyin təmini üçün xərclənən hər qəpiyin belə hesabatı verilir. Aidiyyəti qurum yığılan ianələrin hansı istiqamətə xərclənməsi ilə bağlı ən azı 6 aydan bir hesabat verməlidir. Fəaliyyət istiqamətlərinə gəldikdə isə onu deyə bilərəm ki, məktəbin məzunu hansısa xarici ölkədə reytinqli universitetlərdən birinə qəbul olunubsa, onun illik təhsil xərcinin qarşılanması üçün istifadə oluna bilər. Yaxud da infrastrukturunu müasir standartlara uyğunlaşdırmaq istəyən məktəblərdə laboratoriya qurulması üçün İanə Fonduna yığılan məbləğdən istifadə oluna bilər. Auditoriyalar ağıllı, smart texnologiyaların quraşdırılması üçün də ianə vəsaitlərindən istifadə etmək olar. Ali təhsil haqqını ödəyə bilməyən tələbələrə də maddi dəstək olmaq olar”.

**Şəymən**

# Böyük Britaniyada sükut...

## 4 gün kimsə Kraliçanın tabutuna yaxınlaşa bilməyəcək



**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Kraliçası II Elizabetin vəfatıyla bağlı bu ölkədə 10 günlük matəm elan edilib. Onun haqqında ”taxt-tacda ən uzun müddət əyləşmiş kraliça”, ”70 illik hakimiyyət, 15 nazir, yeganə kraliça”, ”mehriban, gülərüz nənə”, ”ömrünü ingilis xalqına adamış şahzadə” və sair xoş, titrək ifadələrlə yanaşı ”əli qana bulanmış kraliça” (şahzadə Dianın ölümü ilə bağlı) kimi ağır ifadə də işlənir. Bütün hallarda isə Böyük Britaniyanın nə az, nə çox, tam 70 ili məhz bu kraliçayla bağlıdır.**

21 aprel 1926-cı ildə Londonda dünyaya gələn II Elizabet Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası, həmçinin Millətlər Birliyinin sədri və ora daxil olan 14 dövlətin kraliçası idi. Həmçinin Fici Respublikasının Ali Başçısı, Anqlikan Kilsəsinin başçısı, Böyük Britaniya Silahlı Qüvvələrinin Ali Baş Komandanı, polkovnik, Men adalarının lordu idi. Vindzorlar sülaləsinin nümayəndəsi olan Elizabet taxt-taca 6 fevral 1952-ci ildə sahib olub, 2 iyun 1953-cü ildə isə rəsmi tacqoyma mərasimi keçirilib. Əmisi VIII Eduard hakimiyyət iddiasından rəsmi əl çəkəndən və atası 1936-cı ilin dekabrında taxt-taca sahib olandan sonra 10 yaşlı Elizabet vəliəhd olur və valideynləri ilə birlikdə Kensinqtondan Bukingem sarayına köçür. Gələcək kraliça xoş əhval-ruhiyyəli atmosferdə böyüyüb. O, ailə şəraitində mükəmməl şəxsi təhsil alıb. Uşaqlıqdan hər şeylə maraqlanıb. Ən çox atlara maraq göstərib, bu marağı yaşlı vaxtlarında da qalmaqda idi.

### Kraliçaya Qarabağ atı hədiyyəsi

Birləşmiş Krallığın atlara xüsusi sevgisi və marağı olan kraliçasına 2 dəfə Qarabağ atı hədiyyə edilib. Birinci dəfə 1956-cı ildə, SSRİ-nin ozamankı siyasi rəhbəri Nikita Xruşşov Kraliça II Elizabetə ”Zaman” adlı Qarabağ atı hədiyyə edib. İkinci dəfə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hədiyyəsi - ”Şöhrət” adlı Qarabağ atı 2022-ci ilin mayında kraliçaya kral ailəsi üzvlərinin şərəfinə ənənəvi təşkil edilən Vindzor Kral Atçılıq Şousu zamanı təqdim edilib. Eyni zamanda Azərbaycanın tanınmış heykəltəraşı Faiq Hacıyevin yaratdığı ”Alxan” adlı Qarabağ, ”Qalxan” adlı Dilbaz atlarının heykəlləri də Kraliçaya hədiyyə olunub.

İkinci Dünya müharibəsində o, könüllü kimi hərbi taksi sürücüsü işləyib. Çünki kral ailəsi ölkənin müdafiəsində birbaşa iştirak etməli idi. 1947-ci ildə isə Elizabet Böyük Britaniya müstəmləkələrinə ilk səfərini edir. 13 yaşında Elizabet Dortmut hərbi-dəniz məktəbinin kadeti, kraliça Viktoriyanın kötücəsi, şahzadə Andrey Qreçeskinin oğlu Filip Mauntbettenlə tanış olur. 1947-ci ildə onunla ailə həyatı qurur və Filip Edinburq hersoqu titulunu alır. Onların dörd övladı vardır: şahzadə Çarlz, şahzadə Anna, şahzadə Endrü və şahzadə Eduard.




*"Əvvəlcə şahzadə Çarlz kral elan ediləcək. Yas mərasimi başlamadan yeni kral xalqa müraciət edəcək"*

Kraliça Elizabet dövlət başçısı kimi ancaq təmsilçilik rolu oynasa da, öz şəxsi nüfuzu ilə ölkənin siyasətinə müəyyən qədər təsir edə bilib. Kraliça bütün baş nazirlərlə diplomatik münasibətlər saxlayıb. Marqaret Tetçerin hakimiyyəti dövründə isə onunla bir qədər gərgin münasibətləri var idi. Ona Tetçerin müəyyən qədər ”kralsayağı” idarəetməsi xoş gəlmirdi. 1992-ci il II Elizabet üçün ağır il oldu. Kraliçanın ailəsinin nüfuzuna şahzadə Çarlzın, şahzadə Annanın və şahzadə Endrünün ailələrindəki söz-söhbət və hər üçünün boşanma prosesləri ciddi təsir etdi. Onun şahzadə Diananın 1997-ci ilin avqustunda faciəli ölümünə sakit yanaşması və beş gün milli matəm günlərində kral ailəsinin saraydan kənara çıxmaması britaniyalıların əksəriyyətinin xoşuna gəlmədi. Ailə ictimaiyyət qarşısına Diananın dəfnindən bir gün əvvəl çıxdı, ancaq bununla belə Britaniya mətbuatının kəskin tənqidinə məruz qaldı. Buna baxmayaraq, Elizabetin ictimai rəydə nüfuzu yenə də kəskin aşağı düşmədi. 2022-ci ildə kraliçanın hakimiyyətdə olmasınını 70 illiyi - Platin yubileyi təntənə ilə qeyd olundu.

### Kraliça ölərsə...

Kraliçanın həyat yoldaşı şahzadə Filipin ölümündən sonra isə çoxlarını ”Kraliça vəfat edərsə, nə baş verəcək” sualı maraqlandırırdı. Həm kral ailəsi, həm də bütün Britaniya buna hazır olmalıydı. Bir müddət əvvəlsə bu plan açıqlandı. Plana ”London Körpüsü əməliyyatı” adı verilmişdi. Qeyd olunurdu ki, kraliça vəfat etdikdə əməliyyata başlanacaq. Kraliçanın ölüm xəbəri ”London körpüsü yıxıldı” ifadəsiylə Baş nazirliyə bildiriləcək. Sonra kraliçanın hökmranlığı altında olan 15 ölkə və İngiltərə Millətlər Topluluğuna aid 36 ölkəyə gizli bir xətt üzərindən bu məlumat veriləcək. Məlumatda da ”London körpüsü yıxıldı” mesajı olacaq. Əvvəlcə şahzadə Çarlz kral elan ediləcək. Yas mərasimi başlamadan yeni kral xalqa müraciət edəcək. Sonra qısa toplantılar üçün ölkənin müxtəlif bölgələrinə səfərlər edəcək. Kraliça vəfat etdikdə, eynən bizdə olduğu kimi ingilis xalqı da televiziyaları qapadacaq. BBC ağ rəngli loqosunu qara ilə əvəz edəcək, əyləncə proqramları efirdən yığışdırılacaq. Yalnız kraliçanın həyatı ilə bağlı materiallar efirə veriləcək. Kraliça haqqında hazırlanmış sənədli filmlər yayımlanacaq. Ölkə ərazisində bütün mağazalar, AVM-lər, birjalar bir günlük bağlanacaq. Bu durum İngiltərəyə milyonlarla dollar zərər verəcək. Təkcə kraliçanın ölümü deyil, yeni kralın tacqoyma mərasimi xərcləri də hökumətə baha başa gələcək. Vəfatından sonra kraliçanın tabutu Bekingem sarayında 4 gün saxlanacaq. Kimsə tabuta yaxınlaşa bilməyəcək. 4 gündən sonra tabut Vestminster sarayına aparılacaq. Və burada kral ailəsinin ziyarəti təşkil olunacaq. Sonra isə kraliçanı son dəfə görmələri üçün xalqın ziyarəti başlanacaq. Cənazə II Yelizavetanın atasının məzarı olan Müqəddəs Georgi kilsəsinə aparılmadan öncə ”Big Ben” qülləsində saat 11:00-da Kraliça üçün son zəng çalınacaq. Bu zaman bütün ölkədə səssizlik hökm sürəcək. Hazırda İngiltərənin milli valyutasında II Yelizavetanın rəsmidir. Vəfatından sonra isə artıq kral olacaq şahzadə Çarlzın rəsmi vurulacaq. Kraliçanın rəsmi olan pullar isə tədricən dövriyyədən çıxarılacaq. Yeni tacqoyma mərasimi isə 1 il sonra keçiriləcək. Lakin şahzadə Çarlz kral adlanmaqda davam edəcək. Vəziyyət belədir: Kral(liça) öldü, yaşasın Kral!

**Məlahət Rzayeva**

## "Rəsmi Bakı Brüssel razılaşmasına sadiq olduğunu göstərir"

Asif Nərimanlı: ”Digər tərəfdən Azərbaycan Brüssel razılaşmasına əməl etməklə Aİ-nin ”əlini gücləndirdi”



**Azərbaycan beş Ermənistan hərbçisini azad edərək dövlət sərhədində qarşı tərəfə təhvil verib. Bu barədə Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından bildirilib. Rəsmi Bakının belə humanist addımı Avropa İttifaqı tərəfindən də rəğbətlə qarşılanıb.**

Bu barədə Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar öz ”Twitter”ində yazıb: ”Liderlərin avqustun 31-də Brüsseldəki görüşündən sonra Azərbaycan tərəfindən saxlanılan beş erməni hərbçinin azad edilməsi ilə bağlı xəbərini alqışlayırıq. Bu, əhəmiyyətli humanitar jestdir və eyni zamanda təhvil-təslim prosesi olmadan bunun baş tutması isə diqqətəlayiqdir”.

**Məsələni dəyərləndirən siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə bildirib ki, Azərbaycan tərəfi üzərinə düşən bütün tapşırıqları lazımınca yerinə yetirir:** ”Ermənistan isə daha çox Rusiyanın, eləcə də Avropanın təzyiqindən sonra gərəkli addımları atıb. İndi rəsmi Bakının son olaraq beş erməni hərbçini də qarşı tərəfə təhvil verməsi bir daha onun sülh mövqeyində dayanmasını göstərir. Ermənistan isə belə mövqe sərgiləmir. Son günlər sərhəddə baş verən hadisələr də bizə bunu deməyə əsas verir. Avqustun 31-də baş tutan Brüssel görüşündə əldə edilən razılaşmalarda qeyd olunub ki, Azərbaycan erməni hərbçilərini rəsmi İrəvana təhvil verməli və Ermənistan bunun qarşılığında itkin düşmüş azərbaycanlılar haqqında məlumat ötürməlidir.

Ancaq görünən odur ki, Ermənistan tərəfi hələ də bunu etməkdən boyun qaçırır. Azərbaycan isə öz üzərinə düşəni zamanında yerinə yetirərək Brüssel razılaşmasına sadiq olduğunu göstərir.

Hazırda tərəflər arasında imzalanacaq yekun sülh üçün işçi qrupunun yaradılması aktualdır.

İndiki məqamda rəsmi Bakı belə humanist addımla da bir növ Avropaya bizim bütün qaydalara əməl etdiyimizi nümayiş etdirir. Ona yekun sülh üçün əsas maneələr törədən tərəfin Ermənistan olduğunu bildirir.

Digər tərəfdən Azərbaycan Brüssel razılaşmasına əməl etməklə Aİ-nın ”əlini gücləndirdi”.

Bununla o həm də Rusiyaya rəsmi Bakının maraqlarına zidd addım atılacağı təqdirdə öz alternativinin olduğu mesajını verdi”.

**Günəş Mərd**

# "10 min nəfər üzvlə bağlı bizim partiyanın problemi yoxdur"

## Əlisahib Hüseynov: “Bu tələb oturuşmuş, təşkilatlanmış partiyaları qətiyyən narahat etməməlidir”

**”Ötən gün Milli Məclisin saytında yerləşdirilmiş ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin ictimai müzakirələr üçün açıq elan edilməsi ölkəmizin ictimai-siyasi həyatı üçün olduqca mühüm hadisədir”.**

**Bu barədə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri layihənin ictimai müzakirəyə çıxarılmasını müsbət addım kimi qiymətləndirib: ”Layihənin müzakirəyə çıxarılması ictimai-siyasi mühitdə böyük bir canlanma yaradacaq. Bunu sözügedən layihəyə həm siyasilər, həm media əhli, həm də ekspertlər tərəfindən verilən ilkin reaksiyalardan da görmək mümkündür.**

Deməli, yeni qanun layihəsinin ictimai müzakirələr nəticəsində cilalanıb dolğunlaşması, təkmilləşməsi və sonda optimal bir qanun kimi qəbul edilməsi perspektivi artıq bəri başdan təmin edilib. Bəs yeni qanunun qəbul edilməsinə zərurət haradan yaranıb? Bildiyimiz kimi ”siyasi partiyalar haqqında” qanun ilk dəfə 1992-ci ildə qəbul olunub. Ötən 30 il ərzində ölkəmiz böyük bir siyasi inkişaf yolu keçib. Həmçinin, torpaqlarımız işğaldan azad edilib, yeni reallıqlar yaranıb. Ölkədə yeni siyasi konfiqurasiya formalaşıb. Məlum məsələdir ki, köhnə qanun yeni dövrün tələblərinə cavab verə bilmir. Çünki 1992-ci ildə qəbul edilmiş ”Siyasi partiyalar haqqında” qanunda bir sıra ciddi çatışmazlıqlar, boşluqlar var. Yeni qanun layihəsinin işlənilib hazırlanması da ilk növbədə məhz həmin çatışmazlıqları, boşluqları aradan qaldırmağa və günümüzün tələblərinə, zamanın çağırışlarına uyğun mükəmməl qanun qəbul edilməsinə xidmət edir”.

**Ə.Hüseynov vurğulayıb ki, yeni qanun layihəsinin hazırlanması prosesi demokratik və tam şəffaf formada təşkil edilib:** ”Qanun layihəsinin hazırlanması prosesində siyasi partiyaların iştirakı da təmin edilib. 40-dan çox siyasi partiya öz təkliflərini rəsmi olaraq Milli Məclisə təqdim edib. Bu partiyaların arasında rəhbərlik etdiyim Milli Həmrəylik Partiyası da təmsil olunur. Biz də layihə ilə bağlı ilkin təkliflərimizi Milli Məclisə təqdim etmişdik. Müsbət haldır ki, qanun layihəsində bizim də ilkin təkliflərimiz yer alıb. Digər partiyaların da təkliflərinin nəzərə alındığı barədə məlumatımız var. Siyasi partiyaların bu prosesə fəal surətdə cəlb olunması təqdirəlayiq haldır. ”Siyasi partiyalar haqqında” qanunun bu yeni layihəsi həm siyasi qüvvələr tərəfindən geniş müzakirə edildikdən, həm də vətəndaş cəmiyyəti subyektlərinin, ekspertlərin, dövlət orqan və qurumlarının təklifləri nəzərdən keçirilməklə ictimai müzakirələrdən sonra qəbul olunacaq. Əminik ki, qanun qəbul edildikdən sonra mövcud siyasi sistemimiz, eləcə də dövlət-partiya münasibətləri, partiyaların təbliğat və təşviqat imkanları daha da təkmilləşəcək və partiyaların cəmiyyətdəki rolu yeni məzmun qazanacaq, yeni keyfiyyət halı alacaq”.



*"Layihədə təqdir etdiyimiz və dəstəklədiyimiz bir çox müddəalarla yanaşı, redaktəsini vacib hesab etdiyimiz və yaxud dəyişdirilməsini zəruri hesab etdiyimiz məqamlar da var"*

**Partiya rəhbəri qeyd edib ki, qanun layihəsi ilə bağlı Milli Məclisdə keçirilən dinləmələrə, müzakirələrə də dəvət olunacaqlar:** ”Ona görə də biz Milli Həmrəylik Partiyası olaraq hazırda yeni qanun layihəsinin müddəaları ilə, detalları ilə yaxından tanış olur, təhlillər edirik. ”Siyasi partiyalar haqqında” qanun layihəsinin siyasi islahatlara və siyasi instututların güclənməsinə təkan verməsi üçün əsas təkliflərimizi təqdim edəcəyik. Əlbəttə, layihədə təqdir etdiyimiz və dəstəklədiyimiz bir çox müddəalarla yanaşı, redaktəsini vacib hesab etdiyimiz və yaxud dəyişdirilməsini zəruri hesab etdiyimiz məqamlar da var. Düşünürük ki, siyasi partiyaların əsas subyekti olan və qanun layihəsinin də bilavasitə şamil olunduğu siyasi partiyaların mövqeyi və əsaslandırılmış təklifləri mütləq nəzərə alınacaq. Heç kimin təklifi gözardı edilməyəcək. Odur ki, narahatlıq üçün də heç bir əsas görmürük. Partiyaların qeydiyyatı üçün minimum 10 min nəfər üzvün olması tələbi də oturuşmuş, təşkilatlanmış partiyaları qətiyyən narahat etməməlidir. Milli Həmrəylik Partiyası olaraq bizim belə bir narahatlığımız və problemimiz yoxdur. Çünki həm paytaxtda, həm də bölgələrdə yerli təşkilatlarımız fəaliyyət göstərir, üzvlərimizin sıraları genişlənir. Təşkilatçılıq ənənələri güclü olan və kadr potensialı, insan resursları geniş olan partiyaların yeni qanun layihəsindəki tələblərin öhdəsindən gələcəyi şəksizdir. Zənnimizcə, bu qəbildən olan tələblər siyasi mühitdə təmərküzləşməyə gətirib çıxaracaq. Böyük siyasi partiyaların formalaşmasına zəmin yaradacaq, həmçinin partiyaların çevikliyini, siyasi rəqabət imkanlarını stimullaşdıracaq. Bu baxımdan, biz bu qanunun gətirəcəyi yeniliklərə açıq olmalıyıq. Çünki yeni qanun siyasi proseslərə dinamika gətirəcək və demokratiyanın dərinləşdirilməsinə töhfə verəcək”.

**İsmayıl Qocayev**

## 20 metrlik qüllə ucaldıldı

Laçında Radio-Televiziya Yayımı Stansiyası istismara verildi



**Laçın rayonunda yerləşən Laçın Radio-Televiziya Yayımı Stansiyası (RTYS) sentyabrın 9-da istismara verilib.**

Stansiyanın işinin müvəqqəti bərpası məqsədilə mövcud 20 metrlik qüllədən və texniki binadan istifadə edilib.

Nəticədə rəqəmsal paketdə 8 TV proqramının (AzTV, Mədəniyyət TV, İdman Azərbaycan TV, İctimai TV, Azad Azərbaycan TV, Xəzər TV, CBC, Real TV), Azərbaycan Radiosunun, İctimai Radionun Laçın rayonunda, həmçinin Şuşa və Qubadlı rayonlarının Laçın istiqamətində olan kəndlərində yayımı təmin olunub.

Stansiyanın infrastruktur və yayım imkanlarının artırılması istiqamətində gələcəkdə müvafiq işlərin görülməsi nəzərdə tutulur.

*Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə buna qədər Şuşa, Kəlbəcər, Mincivan (Zəngilan) və Xanlıq (Qubadlı) RTYS-lərin fəaliyyəti müvəqqəti bərpa olunub. Hazırda Şuşa RTYS-dən 10 televiziya, 7 radioproqramın, Kəlbəcər, Mincivan, Xanlıq və Laçın RTYS-lərin hər birindən 8 televiziya və 2 radioproqramın yayımı həyata keçirilir. Qeyd olunan stansiyalar vasitəsilə hazırda Şuşa, Xankəndi, Xocalı, Laçın, Kəlbəcər, Xocavənd, Qubadlı, Füzuli, Cəbrayıl, Zəngilan, Ağdam və digər yaxın ətraf ərazilərdə radio-televiziya yayımları təmin edilir.*

## Düşmən Laçın və Kəlbəcəri atəşə tutdu

**Sentyabrın 8-i axşam saatlarından 9-u səhər saatlarınadək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Qarakilsə rayonunun Noravan, Basarkeçər rayonunun Subatan yaşayış məntəqələri və Gorus rayonu istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Laçın rayonunun Əhmədli və Hacılar, Kəlbəcər rayonunun Zivel yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini fasilələrlə müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**



# "Şimal-Cənub" Dəhlizinin işə düşməsi xüsusi önəm daşıyır"

## Ceyhun Məmmədov: “Bu, regional əməkdaşlığa öz ciddi töhfəsini mütləq verəcək”

**Dünən Bakıda ”Şimal-Cənub” Nəqliyyat Dəhlizinin inkişaf perspektivlərinə dair Azərbaycan, Rusiya və İran rəsmilərinin iştirakı ilə birgə tədbir keçirilib. Tədbirdə Nəqliyyat Dəhlizinin inkişafına dair Azərbaycan, İran və Rusiya arasında birinci üçtərəfli görüşün yekunlarına dair Bakı Bəyannaməsi imzalanıb.**

Bəyannaməyə əsasən, tərəflər dəhlizdən tam potensialı ilə istifadə etmək üçün infrastrukturun və nəqliyyat imkanlarının qiymətləndirilməsi və təhlili sahəsində əməkdaşlığa hazır olduqlarını bildiriblər. 2030-cu ilə qədər tərəflərin əraziləri arasında 30 milyon ton tranzit və ikitərəfli yüklərin təklif olunan hədəflərini nəzərə alıblar. Tərəflər arasında Birgə İşçi Qrupunun yaradılmasının əhəmiyyətini və bir ay ərzində ilk iclası keçirmək niyyətində olduqlarını vurğulayıblar. Bundan əlavə, tərəflər bir ay ərzində ”Rəşt-Astara” Dəmir Yolu Layihəsi üzrə saziş layihəsini hazırlamaq və 2022-ci ilin sonunadək danışıqlara başlamaq niyyətində olduqlarını da bildiriblər. Qeyd edək ki, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi 2000-ci ildə Sankt-Peterburqda imzalanmış Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Hökumətlərarası Sazişlə yaradılıb.

Azərbaycanın baş nazirinin müavini Şahin Mustafayev bildirib ki, Azərbaycanla Ermənistan arasında münaqişənin həllində Rusiyanın, Prezident Vladimir Putinin şəxsi töhfəsi yüksək dəyərləndirilir. O bildirib ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il, 11 yanvar 2021-ci il, 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatları regionda sülhün, sabitliyin və təhlükəsizliyin, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə əsaslanan qarşılıqlı hörmət və birmənalı dəstəkdən çıxış edərək 44 günlük Vətən müharibəsi nəticəsində yaranmış reallıqların möhkəmləndirilməsi, sülh və sabitliyin inkişafına yönəlmiş səylərin birləşdirilməsinə töhfə verəcək”.

Baş nazirin müavini qeyd edib ki, yeni reallıqlara xidmət edəcək ”3+3” əməkdaşlıq formatı perspektivdə regionun təhlükəsizliyinə töhfə verəcək: ”Bu xüsusda 10 dekabr 2021-ci il Moskvada keçirilmiş Azərbaycan, Rusiya, Ermənistan, İran, Türkiyə xarici işlər nazirləri müavinlərinin iclası xüsusi əhəmiyyət kəsb edir”. Şahin Mustafayev vurğulayıb ki, Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılmasında maraqlıdır və artıq sülh sazişi üzrə danışıqlara başlamağa hazır olduğunu bəyan edib.

Ş.Mustafayev bəyan edib ki, bölgədə vəziyyətin normallaşdırılması üçün sülhdən başqa heç bir alternativ yoxdur: ”Azərbaycan tərəfi Ermənistanla münasibətlərin normallaşmasında maraqlıdır. Bu, ilk növbədə Azərbaycanla Ermənistan arasında bir-birinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması, hörmət edilməsi əsasında dövlətlərarası münasibətlərin təsis edilməsi çərçivəsində əldə edilə bilər”. O qeyd edib ki, Azərbaycan əhəmiyyətli nəqliyyat və logistika mərkəzinə çevrilir: ”Şimal-Cənub” və ”Şərq-Qərb” nəqliyyat dəhlizinin kəsişməsində yerləşən Azərbaycan əhəmiyyətli nəqliyyat və logistika mərkəzinə çevrilir. Bu ilin 8 ayında dəhlizlər üzrə tranzit yükdaşımaları 47 faiz artıb”. ”Şimal-Cənub” dəhlizinin əhəmiyyətini qeyd edən Şahin Mustafayev, onun inkişafı üçün böyük imkanların mövcud olduğunu qeyd edib.

Rusiya baş nazirinin müavini Aleksandr Novak deyib ki, Azərbaycan, Rusiya və İran vahid dəmiryol şəbəkəsi inşa etmək niyyətindədir: ”Şimal-Cənub beynəlxalq dəhlizinin inkişafı üzrə işçi qrup ölkə rəhbərlərimiz tərəfindən yaradılıb və onun inkişafı üçtərəfli əməkdaşlıq üçün vacibdir. Azərbaycan və Rusiya prezidentlərinin danışıqları zamanı tərəflər Rəşt-Astara, eləcə də Şimal-Cənub dəhlizinin inkişafı məsələlərinin müzakirəsinə hazırlığını ifadə edib”.

O bildirib ki, Rusiya üçtərəfli formatdan məhsuldar əməkdaşlığa hazırdır: ”Biz vahid dəmiryol şəbəkəsinin tikintisini planlaşdırırıq. Bunun tikintisi qərb dəhlizi ilə yük axınını 15 faiz artırmağa imkan verəcək. Həmçinin, logistika xidməti və tarif mexanizminin yaradılmasını vacib hesab edirik. Bu gün Rusiya, Azərbaycan və İran yüklərin sadələşdirilmiş daşınması barədə razılıq əldə edib. Dəhlizin səmərəli işinin təmin olunması məqsədilə Rusiya yeni inkişaf mexanizmi hazırlayıb. Biz dövlət başçılarımızın tapşırıqlarına əsasən hərəkət etməliyik və üç ay ərazində investisiya və maliyyə mənbələrinin müəyyənləşdirilməsini planlaşdırırıq”.

İran İslam Respublikasının yollar və şəhərsalma naziri Rüstəm Qasemi bildirib ki, ”Şimal-Cənub” beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində daimi katiblik sisteminin yaradılması məsələsi diqqətdə saxlanılmalıdır. Onun sözlərinə görə, bununla yanaşı, ”Şimal-Cənub” dəhlizi çərçivəsində İran ərazisində ”Rəşt-Astara” dəmir yolunun yaradılması məsələsi də vacibdir. Nazir onu da əlavə edib ki, sərhədlər vasitəsilə gediş-gəlişin və vizaların verilməsinin asanlaşdırılması vacib məsələlərdəndir: ”Biz vizanın alınması məsələsini asanlaşdırmalıyıq, burada bəzi xərclər azaldılacaq, o cümlədən qeyri-qanuni və qeyri-prosessual maneələr aradan qalxacaq”.

**Millət vəkili Ceyhun Məmmədov ”Şərq”ə bildirib ki, ”Şimal-Cənub” Nəqliyyat Dəhlizinin işə düşməsi xüsusi önəm daşıyır. Deputatın sözlərinə görə, bu, regional əməkdaşlığa öz ciddi töhfəsini mütləq verəcək:** ”Əvvəlki dönəmlərdə üçlü və altılı formatlarda əməkdaşlıq müzakirə olunurdu. Bu istiqamətlərdə davamlı müəyyən addımlar atılırdı. O baxımdan hesab edirəm ki, belə müzakirələrin aparılması çox önəmlidir. Nəzərə almalıyıq ki, Rusiya və İran bizim böyük qonşularımızdır. Zaman-zaman aramızda fikir ayrılığı olsa da, bu dövlətlərlə münasibətlərimizi qoruyub saxlamalı və inkişaf etdirməliyik. Regionda təhlükəsizliyi təmin etmək üçün belə əməkdaşlıqda hər ölkə maraqlı olmalıdır. Azərbaycan cəmiyyətində müxtəlif müşahidələrin şahidiyik. Amma hesab edirəm ki, bu dəhlizin açılması bizim müstəqilliyimizi, dövlətçiliyimizi, qələbəmizi daha da möhkəmləndirəcək”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Açıq demədiyimizi Paşinyan dünyaya reklam edir"

## Azər Qasımov: ”Çıxılmaz vəziyyətdə qalan Paşinyan xarici havadarlarına ”bizi sülhə məcbur etməyin və buna mane olun” mesajını vermək istəyir”



**Demarkasiya və delimitasiya prosesi ilə bağlı təhdidlər var. Belə bir iddia ilə Ermənistan Baş naziri Nikol Paşinyan Vladivostokdakı erməni icması ilə görüşündə çıxış edib. O bildirib ki, Azərbaycan beynəlxalq meydanlarda Ermənistana qarşı hər hansı ərazi iddiasının olmadığını deyir: ”Ancaq onlar ”Şərqi Zəngəzur” terminindən istifadə edirlər, bu isə ”Qərbi Zəngəzur”un mövcudluğu deməkdir. Bütün bunlarda gizli məna var”.**

Paşinyan qeyd edib ki, hansı xəritələrlə sərhədin müəyyən edilməsi ilə bağlı müxtəlif fikirlər var: ”Deyirlər, 1921, 1923, 1975 və ya 1969-cu il xəritələri əsas götürülməlidir. Biz deyirik, demarkasiya və delimitasiya hüquqi qüvvədə olan sənədlər vasitəsilə həyata keçirilməlidir. Azərbaycanda belə bir bəyanatlar səsləndirilir ki, hansısa ildəki xəritə təsdiqləyir ki, Zəngəzur Ermənistana qanunsuz olaraq verilib və yaxud hansısa yaşayış məntəqəsi qanunsuz olaraq Ermənistana verilib”. Baş nazirin fikrincə, bu, destruktiv yanaşmadır və Azərbaycanın ambisiyasını, daxili təhdidi göstərir: ”Biz irəli getməliyik və demarkasiya, delimitasiya məsələsinin həllinə nail olmalıyıq, o cümlədən Qarabağ məsələsinin həllini tapmalıyıq”.

**Ermənistan baş nazirinin açıqlamasını ”Şərq”ə təhlil edən politoloq Azər Qasımov deyib ki, Azərbaycanın tarixi torpaqlarının adını tez-tez çəkməsini və onların geri verilməsini istəməsində qeyri-adilik yoxdur. Ekspert bildirib ki, sovet ittifaqı qurulanda Azərbaycanın fikri soruşulmadan və razılığı olmadan bu torpaqlar Ermənistana verilib:** ”Necə verilibsə, eləcə də geri qaytarılmalıdır. Ermənistan qəbul etsə də, etməsə də reallıq budur. Hüquqi qüvvədə olan və BMT tərəfindən qəbul edilən sənədlərdə SSRİ-nin ərazisi əsas sənəd kimi qəbul edilib. İttifaq daxilində olan respublikaların sərhədləri əsas kimi götürülməyib. Bu durumda BMT bir-birinin sərhədini tanımayan iki dövlətin müəyyənləşməmiş sərhədi barəsində heç bir hüquqi fikir yürüdə bilməz. Ermənistan ”özünün hesab etdiyi” Azərbaycan ərazilərini işğal edəndə beynəlxalq hüquq yada düşmürdü. İndi Azərbaycan öz halal torpaqlarını istəyəndə beynəlxalq hüquqdan danışır”.

**Analitikə görə, Paşinyanın bu barədə danışması bizim xeyrimizədir:** ”Bizim açıq demədiyimizi Paşinyan bütün dünyaya reklam edir və dünya ictimaiyyətində fikir formalaşdırır. Baş nazir rəsmi Bakının şərtləri əsasında gündəmə gətirilən sülh məsələsinin Ermənistan üçün əlverişsiz olduğunu düşünür. Təbii ki, müharibə senarisi də erməni tərəfi üçün fəlakət deməkdir. Çıxılmaz vəziyyətdə qalan Paşinyan xarici havadarlarına ”bizi sülhə məcbur etməyin və buna mane olun” mesajını vermək istəyir. Sülh Azərbaycan üçün hüquqi sənəddən başqa bir əhəmiyyət kəsb etməyəcək. Tarixi torpaqlarımızın geri istənilməsinin qarşısını heç bir sülh müqaviləsi ala bilməz”.

**İsmayıl Qocayev**

# Müəllimlər lağ obyektinə çevrilir

## Elşən Ramizoğlu: ”Gələcəkdə müqayisə edərik ki, bu günün qüsurları şaftalı qədərdir, yoxsa ondan böyükdür?”



**”Şaftalı” bizə baha başa gələcək. Evdə, çöldə, kənddə, şəhərdə hansısa müəllimə əsəbiləşən şəxslər deyəcək ki, şaftalı sözünü yaza bilməyənlər, gəlib bizə ağıl öyrədir”.**

Başa düşürük, müəllim tənqiddən nəticə çıxarmalıdır. Ancaq ”şaftalı” sözünü düzgün yaza bilməyən bir şəxs sadəcə ”şəftəli” yox, ”şaftalı” yazacaq. Əlavə bir nəticəsi olmayacaq”.

**Bu barədə ”Şərq”ə təhsil üzrə ekspert Elşən Ramizoğlu bildirib. O, müəllimlərin, təhsil işçilərinin lağa qoyulmasını narazılıqla qarşılayıb:** ”Şagirdlərin əksəriyyəti sosial şəbəkə istifadəçisidir. Onların da zarafatları sırasında ”şaftalı”nın yer alacağına əminəm. Belə qüsurlar dünənə aiddir, lakin indi üzə çıxır. Mövcud nöqsanlar da gələcəkdə üzə çıxacaq. Dünənə görə kimsə bu gün cavabdeh olmaya bilər. Hazırda yaşananlara görə biz cavabdehlik daşıyırıq, ona nəzər salaq. Gələcəkdə müqayisə edərik ki, bu günün qüsurları şaftalı qədərdir, yoxsa ondan böyükdür? O barədə indi heç nə demək olmaz. Bütün hallarda müəllimin, təhsil işçilərinin lağ obyektinə çevrilməsi ilə razı deyiləm”.

**Aygün**

# ANS TV-nin keçmiş əməkdaşı küçədə səfil həyat sürür

## Emin Topçubaşov Əlimərdan bəy Topçubaşovun nəslindədir



**İllər öncə televiziyada çalışan, son günlər səfil həyat tərzi sürən 51 yaşlı Emin Topçubaşov yardımla bağlı müraciət edib.**

Baku.ws bildirir ki, bir vaxtlar ANS kanalında çalışan E.Topçubaşov sığınacağa yerləşdirilməsi üçün köməklik göstərilməsini istəyib. O, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun nəslindədir. Uzun illər müxtəlif idarələrdə işləsə də, son dövrlər iş tapmaqda çətinlik çəkib. Bir müddət kirayələrdə qalan 51 yaşlı Emin son günlərini parkda gecələməklə keçirib. *Məsələ ilə bağlı müraciətdən sonra Əmək Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyi Emin Topçubaşovu sığınacaq və sosial reabilitasiya mərkəzinə yerləşdirib.*

# "Hər iki-üç ildən bir müəllimlərin müavinətlərinə artım olur"

## Nadir İsrafilov: ”Büdcədən sosial məsələlərə ayrılan vəsaitlər artdıqca müəllimlərin maaşlarına əlavələr də çoxalır”




**Elm və təhsil naziri Emin Əmrullayevin sözlərinə görə, qarşımızdakı 5 tədris ili ərzində müəllimlərin hər biri sertifikasiyaya cəlb olunacaq. O, həmçinin uğur qazanan müəllimlərin əmək haqqına əlavələrin veriləcəyini də qeyd edib: ”MİQ imtahanlarından keçən, 5 il təcrübəsi olan müəllimləri yaxın günlərdə sertifikasiyaya cəlb edəcəyik.**

Beş il təcrübənin üç və yaxud iki ilə qədər azaldılması ilə bağlı müzakirələrə açığıq. Biz icra edən orqanıq. Qanunvericilikdə dəyişiklik olarsa da, biz buna etiraz etmərik. Bəlli bir müddətin olmasının tərəfdarıyıq”.

Nazir onu da vurğulayıb ki, Azərbaycan müəlliminin rifah səviyyəsinin qaldırılması vacibdir: ”Təhsilimizin ən aparıcı elementi müəllimlərdir. Nazirliyin üzərinə düşən bütün öhdəliklər vaxtında icra edilməlidir. Biz müəllimlərin yanındayıq. Minlərlə müəllimimiz sentyabrdan başlayaraq əməkhaqlarında artımı hiss edəcək. Bu yolda biz mərhələlərlə Azərbaycan gələcəyinin daha bacarıqlı, hazırlıqlı olmasını görəcəyik”.

**Təhsil eksperti Nadir İsrafilov ”Şərq”ə açıqlamasında son dövrlər müəllim amilinə xüsusi diqqət ayrıldığını vurğulamaqla yanaşı, bu sahədə atılan addımları yüksək qiymətləndirib.** Onun sözlərinə görə, bu gün müəllim peşəsinin nüfuzunun artırılması istiqamətində Elm və Təhsil Nazirliyi tərəfindən təqdirəlayiq işlər aparılır. Bunlardan ən vacibi də ümumi təhsil müəssisələrində çalışan müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması və müəllim heyətinin keyfiyyətinin yaxşılaşdırılmasıdır: ”Hər iki-üç ildən bir təhsil işçilərinin müavinətlərində artımlar olur. Bu da sübut edir ki, Azərbaycan sosial siyasət yürüdür. Büdcədən sosial məsələlərə ayrılan vəsaitlər artdıqca müəllimlərin maaşlarına əlavələr də çoxalır”.

**Ekspert qeyd edib ki, dövlətimiz hər zaman müəllimlərə və təhsil işçilərinə xüsusi diqqət ayırır:** ”Xatırlayırsınızsa, 2013-cü ildə ölkə başçısı tərəfindən təhsilin inkişafı üzrə strategiya imzalanıb. Burada əsas hədəflərdən biri də müəllimin nüfuzunun artırılması idi. Təhsil işçilərinin nüfuzunun artırılması da onun sosial əmək şəraitinin yaxşılaşdırılmasına, maddi vəziyyətinin düzəldilməsinə və sosial rifahının artırılmasına xidmət edir”.

**Şəymən**

# Heç kim zəmanət verə bilməz ki, onda psixi xəstəlik olmayacaq

## Belə xəstələri tamamilə cəmiyyətdən təcrid etmək doğru olmaz



**Son vaxtlar intihar, qətl, zorakılıq kimi halların artması cəmiyyətdə ciddi narahatlıq doğurur. Bütün bunlara səbəb kimi də insanların psixi travma və şəxsiyyət pozuntusu yaşaması kimi faktlar göstərilir. Təsadüfi deyil ki, psixoloji problemli adamların cinayət törətməsi ilə tez-tez rastlaşırıq.**

İstər ölkə daxilində, istərsə də xaricdə kifayət qədər belə faktlar saymaq olar. Çox vaxt hadisəni törədənin ruhi xəstə olmasının onun cəzasını yüngülləşdirəcəyi bildirilir. Ekspertlər isə hesab edir ki, şəxsin cinayət törətdiyi an hansı ruhi vəziyyətdə olduğunu müəyyənləşdirmək çox çətindir. Bəzən şəxsə məhkəmə-tibbi ekspertizası arayış verir ki, həmin anda bu, anlaqsız vəziyyətdə olub. Amma elə şəxslər var ki, ruhi xəstədirlər və cinayət törədirlər. Məhkəmə tibbi-ekspertiza bunu müəyyən etməlidir ki, şəxs cinayəti törətməmişdən əvvəl ruhi xəstədir, yoxsa cinayət törətdiyi anda hansısa təsirlərdən anlaqsız vəziyyətə düşüb.

Yeri gəlmişkən, anasını qətlə yetirməkdə ittiham olunan Samir Cəfərovun cinayət işi üzrə məhkəmə araşdırması düənən başa çatıb.

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Məhkəmə ittiham olunan şəxsin psixi problemləri olduğu qənaətinə gələrək, onun məcburi olaraq psixiatriya xəstəxanasına müalicəyə yerləşdirilməsi barəsində hökm qəbul edib.

**Psixoloq Elnur Rüstəmov isə "Şərq"ə deyib ki, psixi xəstələr təhlükəli olsalar da, cəmiyyətdə onlara potensial təhlükə mənbəyi kimi yanaşmaq düzgün deyil:** "Kəskin psixozdan əziyyət çəkənlər var ki, onların qulağına əmredici səslər gələ bilər və sayıqlama ideyaları yarada bilər. Bu əlamətlər nəticəsində isə xəstə insan təhlükəli ola bilər. Onlar aqressiv ola, cinayət törədə bilər. Ancaq bu o demək deyil ki, o xəstədirsə, daimi xəstəxanada olmalıdır, insanlardan, cəmiyyətdən təcrid olunmalıdır".

**Psixoloqun sözlərinə görə, ruhi xəstələrin törətdiyi hadisələr ümumi cinayətlərin 1 faizini təşkil edir:** "Hər yaş üçün spesifik cinayət var. Gənclərdə xuliqanlıq, qocalarda qısqanclıq, ortayaşlı insanlarda isə morfizm ortaya çıxır.

Ruhi xəstəlik genetik xəstəlik kimi tanınsa da, bu xəstəliyin əsas mənbəyi stres faktorlarıdır. Cəmiyyətin intensivliyi, həyatın sürəti artıb. Hər adam bu sürətlə ayaqlaşa bilmir. Ən böyük problem Yer küresində əhalinin çoxalmasıdır. Real həyatda qarşılaşdığımız ciddi problemlərin çoxu insanın daxilində yatan psixi xəstəlik daşıyıcılarını oyadır.

Heç kim zəmanət verə bilməz ki, onda psixi xəstəlik olmayacaq. Avropada psixikasında pozuntu olan şəxsin saxlanma müddəti 12 gündür. Əgər xəstə vəziyyətdən çıxıbsa, onu saxlamağa heç kimin ixtiyarı yoxdur. İnsanların azadlığı hüquqları var".

Şəymən

# Həmişə danışılır, amma ortada bir nəticə yoxdur

## Ucqar bölgələrdə çalışan müəllimlərə xüsusi güzəştlər, imtiyazlar verilməlidir

**Azərbaycan məktəblərində təxminən 3 mindən çox müəllim yeri vakantdır. Həm də bu il üçün müəllimlərin işə qəbulu üzrə imtahanlarda təqdim olunan vakant yerlərdən bəziləri boş qalıb. Bu barədə Təhsil İnstitutunun İnsan Resursları Mərkəzinin direktoru Nurlan İsmayılbəyli "Media və təhsil dialoqu" mövzusunda keçirilən təlim-seminarda çıxışı zamanı deyib. Onun sözlərinə görə, tutulmayan vakant yerlər dərs saatları daha az olan və ucqar yerdəki məktəblərdədir.**

N.İsmayılbəyli əlavə edib ki, bu il həm müddətli, həm də müddətsiz müqavilə ilə işə qəbul edilənlərin sayı təqribi 6 min nəfərdir. "İl ərzində boş qalan yerlərə müddətli müqavilə ilə işə qəbul aparılacaq", - deyə o, əlavə edib. Müəllimlərin işə qəbulu üzrə ən çox vakant yer isə musiqi fənni üzrə olub. Bu say 1 857-dir. N.İsmayılbəyli vurğulayıb ki, rayonlar üzrə vakant yer bölgüsünə gəlincə, 1 679 yer Lənkəran-Astara Regional Təhsil İdarəsində, ikinci yer Bakı şəhəri üzrə Təhsil İdarəsində 1 117 vakant yer, ən az yerlər isə nazirliyə tabe olan müəssisələrdən 63 və internatda 62 olaraq müəyyən edilib.

Məlumatdan belə görünür ki, müəllimliyə xeyli vakant yerlər var. Amma tədris ili başlayar-başlamaz müəllim çatışmazlığından gileylər artacaq. İllərdir bu problem həllini tapmır. Müəllimlik ixtisasını bitirənlər uçqar bölgələrə, kənd məktəblərinə işləməyə getmirlər. Əksəriyyət çalışır ki, paytaxtda, mərkəzi məktəblərdə işləsin. Nə qədər deyilirsə də ki, ucqar bölgələrdə müəllim işləyənlərə güzəştlər edilir, ev, torpaq sahəsi verilir, yenə də gedən yoxdur. Ya, güzəştlər, həvəsləndirici təkliflərin əsası yoxdur, ya da müasir müəllimlər, nə olursa-olsun, kəndin toz-torpağına batmaq istəmir.



**"Aparıcı fənlərə vakant yerlər bəzən gizlədilir. Açıqlanan dərs saatı az olan fənlərdir. Bunlar rəsm, əmək və texnologiya, musiqi fənləridir"**

**Problemin səbəbləri barədə "Şərq"ə danışan təhsil eksperti Elçin Əfəndi qeyd etdi ki, burada bir neçə səbəb var:**

- Müəllimlərin İşə Qəbul imtahanında iştirak edib uğurlu nəticə əldə edənlərə, çox zaman müddətli müqavilə ilə iş təklif edilir. Namizədlər isə bu sərf etmir. Onlar müddətsiz müqavilə ilə işə qəbul üstün tuturlar, ona görə də təklifdən imtina edirlər. Digər tərəfdən aparıcı fənlərə vakant yerlər bəzən gizlədilir. Açıqlanan dərs saatı az olan fənlərdir. Bunlar rəsm, əmək və texnologiya, musiqi fənləridir. Bu fənlərə 2-3 dərs saatı ayrılır. Namizədlər 2-3 saata görə məktəbdə çalışmağı uyğun görmürlər. Çünki əmək haqqı az olacaq. Müəllimin ən azı 250 manat əmək haqqı alması üçün azı 18 dərs saatı olmalıdır. Dərs saatları az olan fənlərə vakant yerlər belə yaranır. Orta məktəblərdə rəsm, musiqi, əmək və texnologiya fənləri üzrə sırf bu ixtisasları bitirmiş müəllimlər işləmir, bu dərsləri də digər fənn müəllimlərinə verirlər ki, heç olmasa, onların əmək haqqı bir qədər artsın. Dərs saatı az olan fənləri tədris edəcək müəllimlərin ya əmək haqqı artırılmalıdır, ya da onlara əlavə həvəsləndirici paketlər təqdim edilməlidir. Belə olarsa, bu ixtisası bitirmiş şəxslər məktəbdə dərs verməyə razılaşar.

**E.Əfəndi ucqar bölgələrdə vakant yerlərin çoxluğuna gəlincə, bunu da müəllim ixtisasını bitirmiş şəxslərin bölgələrə marağının az olması ilə izah etdi:**

- Ucqar bölgələrdə çalışan müəllimlərə xüsusi güzəştlər, imtiyazlar verilməlidir. Bu barədə həmişə danışılır, amma ortada bir nəticə yoxdur. Müəllimlik ixtisasına yiyələnmiş şəxslər güzəşt və imtiyazların olacağına inanmır, ya da bunun əməli təsirini görmür. Ona görə də paytaxtda, mərkəzi məktəblərdə müəllimlik etməyə üstünlük verirlər. İmtahanlardan sonra vakant yerlər açıqlanır, lakin hətta yüksək nəticə göstərənlər də işlə təmin edilmir. Müəllimliyə qəbulda başqa vasitələr rol oynayır.

Məlahət Rzayeva

# "Uşağı qorxu ilə deyil, sevgi ilə yetişdirmək lazımdır"



***İlhamə Həkimoğlu: "Problemlərin əsasında düzgün verilməyən tərbiyə, sevgisizlik, ailə fərdlərinin bir-biri ilə ünsiyyət qura bilməməsi dayanır"***

**"13 yaşda uşaq doğan uşağın anası ona dayaq durmalıykən, arxasıyca düşüb, cinayətkarın cəzasını tələb etməliykən qızına bir zərbə də o vurur".**

*Bu sözləri "Şərq"ə 13 yaşlı qızın uşaq dünyaya gətirməsinə münasibət bildirərkən jurnalist İlhamə Həkimoğlu deyib.* Qələmdaşımız qeyd edib ki, hadisənin ən ağrılı tərəfi ananın uşaq doğan qızından imtina etməsidir:

"Konkret bu baş verən hala gəlincə isə ana bütün günü küçələrdə dolanıb, ailəni saxlamağa çalışan bir qadındır. Oğlanla qızın münasibətləri, bəlkə də sevgi üzərində qurulub. Dəqiq deyə bilmirik, çünki hadisə gizlədilir. Sadəcə, gənclərə cinsi tərbiyə verilmədiyinə görə də bu situasiya yaranır. Ailə uşağa sərbəstlik verməli, amma kənardan nəzarəti də əsirgəməməlidir. Övlad yanlışa yol verə bilər.

İnsan səhvləri ilə öyrənir. Amma hər xətasının arxasında ailənin ona dəstəyini görməlidir. Əks təqdirdə bir cinayətkarın da yetişməsi, kiçik xətaya görə ömürlük bədəlin də ödənilməsi ehtimalı yüksəkdir. Dərdimizin kökü cahil anaların nadan övladlar böyütməsindədir.

Uşaq cəmiyyətdən müəyyən mənada qorunmalıdır. Hər nə qədər yeniyetmələr bunu ailədə məhdudiyyətin tətbiqi kimi qiymətləndirsə də, doğru olan övladların mühafizəsidir.

Valideyn uşağı ilə dostluq etməyi bacarmalıdır. İnam yaratmalıdır ki, övlad dərdini, qayğısını ana-atası ilə bölüşə bilsin.

Uşağı qorxu deyil, sevgi ilə yetişdirmək lazımdır. Problemlərin əsasında düzgün verilməyən tərbiyə, sevgisizlik, ailə fərdlərinin bir-biri ilə ünsiyyət qura bilməməsi dayanır".

Sücayət Mehti

# Azərbaycanda 3 nəfərdə qarayara xəstəliyi aşkarlanıb

## Onların vəziyyətləri stabildir, yaxın günlərdə xəstələr evə buraxılacaq



**Sentyabrın 1-də Bərdə rayonunun Piyadalar kənd sakini tərəfindən daxil olmuş məlumat əsasında Bərdə rayon İcra Hakimiyyətinin, Səhiyyə Nazirliyinin Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinin və Respublika Gigiyena və Epidemiologiya Mərkəzi Bərdə şöbəsinin, Bərdə Rayon Mərkəzi Xəstəxanasının, Baytarlıq İdarəsinin, Qida Təhlükəsizliyi Agentliyinin, Piyadalar kənd Bələdiyyəsinin və Polis Şöbəsinin əməkdaşlarından ibarət xüsusi qrup tərəfindən kənd ərazisində monitorinq aparılıb.**

Bu barədə "Şərq"ə TƏBİB və Səhiyyə Nazirliyindən birgə məlumat verilib.

Bildirilib ki, monitorinq zamanı kənd əhalisindən 6 nəfərin əl və qol nahiyələrində qarayara xəstəliyinə xas yaraların olduğu müşahidə edilib.

TƏBİB-in tabeliyindəki Bərdə Rayon Mərkəzi Xəstəxanasının Yoluxucu Xəstəliklər Şöbəsinin həkim mütəxəssisinin tövsiyəsi ilə həmin şəxslər Rayon Mərkəzi Xəstəxanasının Yoluxucu Xəstəliklər Şöbəsinə yerləşdirilib. 01.09.2022-ci il tarixdə xəstələrdən götürülən laborator müayinə üçün nümunələr Səhiyyə Nazirliyinin Mingəçevir Regional Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinə göndərilib. Götürülən nümunələrdən 3-nün nəticəsi müsbət olub. Laborator müayinə nəticələri müsbət olan şəxslərin Bərdə Rayon Mərkəzi Xəstəxanasının Yoluxucu Xəstəliklər Şöbəsində müalicələri davam edir.

Onların vəziyyətləri stabildir. Yaxın günlərdə xəstələrin evə buraxılması nəzərdə tutulub.

*Qeyd edək ki, törədicinin mənbəyi, əsasən, xəstə heyvanlar və bu xəstəlikdən ölmüş heyvanların cəsədlərinin basdırıldığı torpaq hesab olunur. Xəstəlik heyvandan insana keçir, lakin insandan insana keçmir.*

Aygün

### Təbrik edirik!



Sentyabrın 8-də nəvəm **Nərgizin** 1 yaşı tamam oldu. Bu münasibətlə ürək paramı, yəni bu gözəli və onun ata-anasını ürəkdən təbrik edirəm. Allah onları qorusun! Nərgizin xoşbəxt günlərinin şahidi olsunlar.

**Bu təbrikə bütün doğmaları, xüsusilə Atilla, Nigar və Aysu da qoşulur və onu öpürlər. Doğum günün mübarək, Nərgiz xanım!**

# Londonda yaşayan Nigar Camal kraliçanın ölümündən yazdı



**"Avroviziya 2011" qalibi Nigar Camal sosial şəbəkədə bu gün vəfat edən Britaniya kraliçası II Yelizavetayla bağlı paylaşım edib.**

Sənətçi instaqram səhifəsində kraliçanın fotolarını paylaşaraq sarsıldığını bildirib:

"Dünyanın ən yaxşı kraliçası, rahat yat. 70 illik hakimiyyət! Onun hakimiyyəti dövründə ölkədə 15 baş nazir dəyişib. Samballı insan idi".

*Qeyd edək ki, Nigarın Londonda evi var.*

# Böyükçöl böyük addım atdı

"Avtoritarizmlə savaşan bir millətə dəstək lazımdır"



**"Dəyərlər uğrunda vuruşan bir xalqın yanında olmağı özümə mənəvi borc bilirəm".**

**Bu sözləri "Şərq"ə açıqlamasında parkda kitablarını satıb, Ukraynadan Azərbaycana sığınmış uşaqlara yardım əli uzadan yazıçı Kəramət Böyükçöl deyib. O, əvvəl məktəb ləvazimatları almağı düşünüb:** "Ukrayna səfirliyindən bildirdilər ki, onların məktəb ləvazimatları hazırdır. Lakin ərzaq ehtiyacları var. Mən də satdığım kitabların pulu ilə hər ailənin 150 manatlıq qida tədarükünü qarşıladım. Ümumilikdə 1500 manat xərclədim. Ailələrə baş çəkəndə gördüm ki, həqiqətən də köməyə gərək duyurlarmış.

Amma xeyriyyəçi deyiləm ki, yardım kampaniyasını daimi şəkildə davam etdirim. Sadəcə, bu işləri görmək hazırda avtoritarizmlə savaşan bir millətə dəstək göstərmək, sivil dünyagörüşünə malik, başqa hisslərlə yaşayan və mütərəqqi dünyanın tərkib hissəsi olmaq istəyən hər bir xalqın və yazıçısının borcudur.

Oxucularım, izləyicilərim kitablarımı alaraq, yardım aksiyasını keçirməyimdə böyük rol oynadılar. İctimai fəallar da mətbuat vasitəsilə öz dəstəklərini ifadə etdilər. Kampaniyanın cəmiyyətə çatdırılmasında xidmət göstərdilər. Bu addımım Ukrayna mediasında da işıqlandırılıb.

Bəzən deyirlər ki, sağ əlin verdiyini sol əl bilməməlidir. Amma o fikirlər bu məsələyə şamil edilməməlidir. Əksinə, Ukrayna xalqının yanında olduğumuz bilinməli və ictimaiyyətə çatdırılmalıdır. Cəmiyyətimizdə də belə təşəbbüslərlə çıxış edənlər, aktiv şəkildə dəstəklərini göstərən bir toplum var".

Sücayət Mehti


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2553

ŞƏRQ 10 sentyabr 2022-ci il № 162 (5684) (şənbə) Son səhifə



# Çipsi yeyənlər xərçəngə tutula bilər

**Çox çipsi yeyənlərdə xərçəng olma ehtimalı artır.**

"Medicina" xəbər verir ki, dietoloq Aleksey Kovalkov bəzi qidaların hüceyrələrin kontrolsuz olaraq bölünməsinə səbəb olduğunu bildirib. Hüceyrələrin nəzarətsiz bölünməsi isə törəmələrə səbəb olur.

Yeni elmi tədiqat qeyri sağlam qidalanmanın 35% xərçəngin səbəbi olduğunu sübut edib.

Eləcə də siqaret çəkmə 25% şişlərə səbəb olur.

Şiş hüceyrələri üçün ani enerji, benzin rolunu oynayan tez həll olan karbohidratlar lazımdır. Bu qidaların reytinqində birinci yeri çipslər tutur. Onlardan sonra qazlı, şirəli içkilər, daha sonra kolbasa, sosis, un məmulatı gəlir. Ona görə də gün ərzində çips yeyib, şirəli su içənlərdə xərçəng riski yüksəlir. Sutkada qəbul olunan şirniyyatın miqdarı 100 qramı keçməməlidir.

# Yerin altından gələn səslər...

## Kənd sakinlərini vahiməyə saldı





**Türkiyənin Siirt vilayətinin mərkəzi Meydandərə kəndində yerin altından qəribə və qorxulu səslər gəlməyə başlayıb.**

Oxu.az xəbər verir ki, bu iddia ilə bağlı Türkiyə Fövqəladə Hallar Nazirliyi hərəkətə keçib. Rayonda xüsusi qrup yaradılıb.

Həmçinin geologiya mühəndislərindən ibarət qrup kənddə araşdırma aparıb, kənd muxtarından lazımi məlumatlar alınıb. Həmçinin bölgədə akselerometr sistemi quraşdırılıb. Bu sistem kənddə baş verə biləcək zəlzələlər, təbii və süni təkanlar barədə dərhal məlumat verəcək. Sistem sayəsində yeraltı təkanlar 24 saat müşahidə altında olacaq.

Kəndin müxtəlif nöqtələrində 48 kanallı seysmik cihazla ölçmə aparan qruplar yerin 100 metr dərinliyində də araşdırma aparacaqlar.

Kənd sakinləri isə səsin gündən-günə artdığını iddia edirlər.



# Ət reklamı qadağan olunacaq

## Alimlər maldarlığı azaltmaqla torpaqlardan daha çox insanın qidalana biləcəyini düşünürlər







**Hollandiyanın Haarlem şəhərində qlobal istiləşməyə qarşı görüləcək tədbirlər içərisində reklam lövhələri diqqət mərkəzinə gətirilib. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, Şəhərin meriyası ictimai yerlərdə ət reklamını qadağan etməyə hazırlaşır.**

Bu, ət istehlakının iqlim dəyişikliyinə mənfi təsiri ilə bağlıdır.

Birləşmiş Millətlər Təşkilatının (BMT) məlumatına görə, heyvandarlıq dünya üzrə istixana qazı emissiyalarının ən azı 14 faizinin mənbəyidir.

Bu nisbət hava və quru nəqliyyatının yaratdığı istixana qazı emissiyalarından daha yüksəkdir.

Qanun layihəsini Hollandiyanın Yaşıllar Partiyası hazırlayıb. Ət sənayesi və ifrat sağçı partiya ifadə azadlığının məhdudlaşdırılması kimi qiymətləndirdikləri təklifə qarşı çıxır.

2024-cü ildən tətbiq edilməsi planlaşdırılan qanuna əsasən, ət reklamlarının əksəriyyəti ictimai nəqliyyatda, reklam lövhələrində və sığınacaqlarda qadağan ediləcək.

Təklif qanuna çevrilərsə, 160 min əhalisi olan Haarlem ictimai yerlərdə ət reklamlarını qadağan edən ilk şəhər olacaq.

Səlahiyyətlilər, davamlı istehsal olunan ətin reklam qadağasına daxil edilib-edilməyəcəyinə hələ qərar verilmədiyini söyləyib.

Qlobal istiləşməyə qarşı oxşar məhdudiyyətlər əvvəllər də Hollandiyada tətbiq edilmişdi.

Amsterdam və Haaqada aviasiya və qalıq yanacaq sənayesi üçün reklamlar qadağan edilib.

Qeyd edilir ki, mal-qaranın atmosferə buraxdığı metan qazı qlobal istiləşməyə səbəb olur.

Heyvanlar üçün otlaq sahələri yaratmaq üçün ağacların kəsilməsi də iqlim dəyişikliyini artıran səbəblərdəndir.

Alimlər ət istehlakını azaltmaqla daha az torpaqdan istifadə etməklə daha çox insanın qidalana biləcəyinə diqqət çəkirlər.

**Turan**

# Əmlaklarını bölüşdürə bilmirlər

## Ancelina Coli Bred Pittdən 250 milyon dollar tələb edib



**Keçmiş cütlük Ancelina Coli və Bred Pittin birgə evlilik zamanı əldə etdikləri əmlakın bölüşdürülməsi prosesi hüquqi qarşıdurma səviyyəsinə çatıb.**

**A.Coli B.Pittdən 250 milyon dollar təzminat tələb edib.**

***Qeyd edək ki, 2022-ci ilin fevralında dünyaşöhrətli aktyor B.Pitt öz keçmiş həyat yoldaşı A.Colini 2008-ci ildə birgə yaratdıqları Fransanın cənubundakı şərab zavodu və şəhərkənarı malikanənin qanunsuz satışına görə məhkəməyə verib. Açılan əks iddiada isə Hollivud ulduzu A.Coli keçmiş həyat yoldaşını ona qarşı qisasçı müharibə aparmaqda, həmçinin əmlak və biznes üzərində nəzarəti ələ keçirməkdə günahlandırıb.***

# Aktrisa onu təhqir edəni cəzalandırdı



**Məşhur aktrisa Pelin Akil Altan sosial mediada ünvanına təhqiramiz mesaj göndərən şəxs cəzalandırılıb.**

**Sözügedən şəxs "səslə açıq şəkildə təhqir etmək" ittihamı ilə 120 TL adlı pul cəzasına məhkum edilib.**

# Küçə iti Tuğbaya hücum etdi

## Türkiyəli müğənni xəstəxanalıq olub



**Türkiyəli müğənni Tuğba Altıntop xəstəxanalıq olub.**

**Axşam.az xəbər verir ki, sənətçi Şiledə küçədə itin hücumuna məruz qalıb. İt onu üzündən yaralayıb. Hadisədən dərhal sonra ... xəstəxanaya aparılıb və onun üzünə tikiş vurulub.**

**Rəfiqəsi onun xəstəxanadan olan görüntülərini sosial media hesabında paylaşıb.**

**Qeyd edək ki, Tuğba Altıntop müğənni Rafet El Romanın keçmiş həyat yoldaşıdır.**

# Saqqız yorğunluğu götürür

## Enerjini tez yüksəldən qidalar bəlli oldu



**İşdə, həyatda enerji azlığı, halsızlıq hiss edənlər ani effekt verən qidalarla enerjini yüksəldə bilərlər. "Medicina" xəbər verir ki, həkimlər ani enerji verən qidaları sadalayıb.**

**Banan - bədəni qısa müddətdə tonusa gətirir**

**Yilaf əzməsi - səhər yeyilsə günortaya kimi enerji verir**

**Yaşıl çay - L tiamin adlı amin turşusu beyni sakitləşdirir Saqqız - çeynəmə özü yorğunluğu götürür Qoz, badam, fındıq - Omeqa ilə zəngindir, beyni stimulə edir.**




# Kraliçanın vəfatı dünya mətbuatında

## "Tale sevgi üçün ödədiyimiz qiymətdir"



**İngiltərə Kraliçası II. Elizabetin ölümü Britaniya və dünya mətbuatında geniş əks-səda doğurub.**

**"Daily Telegraph", Elizabetin "Kədər sevgi üçün ödədiyimiz qiymətdir" sözlərini sitat gətirib.**

"The Guardian" ilk səhifəsində heç bir mətn olmadan yalnız Kraliçanın adını, onun ölüm və doğum tarixlərini yazıb.

"Daily Mail" 1952-ci ildə Şahzadə Elizabet olduğu zaman çəkilmiş kraliçanın portretini manşetində istifadə edərək, "Ürəklərimiz qırıldı" yazıb.

Kraliçanın daha bir yeni fotosundan istifadə edən "Mirror" ilk səhifəsində sadəcə olaraq "Təşəkkür edirik" qeydlərini edib.

"Sun" qəzeti "Sizi çox sevirdik, xanım" başlığı ilə çıxış edib. Qəzetin ilk səhifəsində "Sun" qəzeti və oxucularımız olaraq sizi çox sevirdik. Kraliçamız olmaqdan qürur duyuruq" ifadələri yer alıb.

"Sevimli kraliçamız öldü" yazıb "Daily Express".

"İ" qəzeti də tacqoyma mərasimindən bir kadra üstünlük verərək, ölkədə 10 gün yas olacağını xatırladıb.

"Siz öz vəzifənizi yerinə yetirdiniz, xanım" qeyd edir "Daily Star"da. Qəzetin qırmızı loqosu qara rəngə dəyişdirilib.

"Times" qəzeti 1953-cü ildə kraliçanın dəfnindən çəkilmiş bir şəkildən istifadə edərək, "Xidmətə həsr olunmuş bir həyat" başlığı ilə ön səhifədə verib.

**Turan**

# Hər şey itirildi

## Yer beş "fəlakətli" iqlim dəyişmə nöqtəsinin astanasındadır



**Temperatur artımı dünyanı beş kritik dönmə nöqtəsinin astanasına gətirib çıxarıb. Bu, iqlim böhranının təsirləri ilə bağlı aparılan yeni bir araşdırmada elan olunub.**

Beynəlxalq tədqiqat qrupunun araşdırmasında qeyd olunur ki, qlobal istiləşmə və iqlim böhranı dünyanı "bir neçə dəfə alt-üst olmaq" həddinə çatdıra bilər.

Elm adamları, tədqiqatçılar cəmi 16 dönmə nöqtəsi üçün dəlil tapdıqlarını və son altı nöqtəni tətikləmək üçün qlobal istiləşmənin ən azı 2 dərəcə selsi tələb edəcəyini söyləyib.

Potsdam İqlim Təsirləri Araşdırma İnstitutunun direktoru Yohan Rockström, "Dünya 2-3 dərəcə qlobal istiləşməyə doğru gedir. Bu, dünyada insanlar üçün fəlakətli olacaq" deyə narahatçılığını dilə gətirib: "Biz Yer kürəsində yaşamaq üçün əlverişli şəraiti qorumalı və sabit cəmiyyətlər üçün mümkün olan hər şeyi etməliyik". Araşdırmanın aparıcı müəllifi Devid Armstronq Makkay isə bunları deyib: "Həqiqətən narahatedicidir. Bədbəxtliyin səbəbləri var. Tezliklə o xallara çatacağıq, hər şey itirildi və oyun bitdi".

**Turan**

# Gündə 1 saat sosial şəbəkələrdən imtina depressiyanı azaldır

## Alimlər 642 nəfəri 4 qrupa bölərək 4 həftə onların üzərində müşahidə aparıblar



**Bohum universitetinin alimləri sosial şəbəkələrdə keçirilən vaxtın azaldılmasının psixi sağlamlığa təsir etdiyini açıqlayıb.**

"Medicina" xəbər verir ki, alimlər 642 nəfəri 4 qrupa bölərək 4 həftə onların üzərində müşahidə aparıblar.

Birinci qrup sosial şəbəkələrdə oturma vaxtını gündə yarım saat azaldıblar.

İkinci qrup gündə 30 dəqiqə fiziki aktivliyi artırıblar.

Üçüncü qrup həm internetdə olma müddətini azaldıb, həm də gəzintiyə çıxıb.

Dördüncü qrupa heç bir tapşırıq verilməyib və onlar istədikləri qədər sosial şəbəkələrdə olublar.

Nəticələr göstərib ki, 4 həftə sonra özünü daha çox 3-cü qrup yaxşı hiss edib.

Onlarda depressiya simptomları azalıb, həyatdan razılıq hissi artıb, əhvalları yaxşılaşıb. Hətta effekt yarım il qorunub saxlanılıb. Digər qruplarda isə depressiya qalıb. Bundan öncə də alimlər depressiya və nevrozun müalicəsi üçün sosial şəbəkələrdən azı 1 həftə imtinanın yüksək effekt verdiyini demişdilər.